QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Baş nazir Əli Əsədovun sədrliyi ilə iclas keçirilib

6

Uğurlu inkişaf modeli: regionlarda reallaşdırılan sosial-iqtisadi layihələr

2

№ 109 (7277)

24 iyun 2025-ci il.
Qiyməti 60 qəpik

Sülh üçün hücum - PARADOKS

ABŞ: Müharibəni bitirmək üçün İranı vurduq

8

"Silahlı Qüvvələrimizlə haqlı olaraq qürur duyuruq"

4

"Boşanmalar nə övlad üstündə, nə də namus üstündə baş verir"

16

Ağlamaq: qadınlara olar, kişilərə yox?

13

İran "qan itirir", hiyləgər Paşinyan Ərdoğanla "dostlaşır"...

7

Xammal ölkəsindən sənaye ölkəsinə necə keçə bilərik?

10

Uğurlu inkişaf modeli:

regionlarda reallaşdırılan sosial-iqtisadi layihələr

İqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayan Azərbaycan yeni qlobal reallıqlar fonunda özünün inkişaf mərhələsindədir. Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini təmin etməkdədir. Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Azərbaycan beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla icra edilir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın hər bölgəsinə səfəri ölkəmizin sosial-iqtisadi inkişafına böyük təkandır. Yeni müəsissələrin açılışı, təməlqoyma mərasimləri, yol infrastrukturunun müasirləşməsi və s. ölkəmizin uğurlu inkişafına söykənən amillərdir. Paytaxtla yanaşı, regionlarımıza yatırılan sərmayələr sayəsində yeni istehsal müəssisələrinin açılması ölkəmizdə qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla bərabər, bölgələrimizin iqtisadi potensialının daha da möhkəmləndirilməsində çox böyük rol oynayır.

MAGİSTRAL AVTOMOBİL YOLU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 23-də Yevlax şəhərinə səfəri buranın sosial-iqtisadi inkişafında əlamətdar hadisələrlə yadda qalıb. Təbii ki, Azərbaycan Prezidentinin bölgələrə hər bir səfəri regionların inkişafına, vətəndaşların rifahına, firavan həyatın təminatına yönəlib. Dövlət başçısının Yevlaxa səfəri regionların inkişafına növbəti töhfədir. Bu gün ölkəmizin regionlarda böyük infrastruktur layihələri həyata keçirilir, müasir yollar çəkilir, sosial obyektlər inşa edilir. Bu, onu deməyə əsas verir ki, Azərbaycan Prezidentinin siyasətinin mərkəzində vətəndaşların rahat həyat şəraiti və məmnunluğu dayanır.

Dövlət başçısı səfəri çərçivəsində Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanış olub. Magistral yolun Yevlax şəhərindən keçən hissəsində yeraltı piyada keçidinin, səkilərinin, həmçinin magistral yola avtomobillərin iki istiqamətli giriş-çıxışını təmin edən yanaşma yollarının tikinti işləri başa çatmaq üzrədir. Piyada keçidinin ümumi uzunluğu 48 metr olacaq ki, onun da 37 metri qapalı hissədir. Eni 7 metr olan yanaşma yollarının ümumi uzunluğu isə 3,2 kilometrdir. Qeyd edək ki, Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsidir. Bu yolun müasir səviyyədə qurulması Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın beynəlxalq nəqliyyat daşımalarında rolunu daha da gücləndirir.

Zəngin potensiala malik olan Azərbaycanda yol infrastrukturunun inkişafı ölkənin əsas prioritetlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu daxili siyasəti sayəsində qazanılan müvəffəqiyyətlərin sırasında bu sahənin inkişafı önəmli yer tutur. ”Azərbaycanda ən müasir yol infrastrukturu yaradılacaq”, - deyən dövlət başçısı tərəfindən bu sahəyə ayrılan diqqət nəticəsində respublikamızda ən müasir standartlara cavab verən nəqliyyat obyektləri və geniş şəbəkəli nəqliyyat sistemi yaradılıb. Hazırda isə dinamik templə həyata keçirilən qlobal layihələr və Azərbaycan Respublikasının sürətli iqtisadi inkişafı ölkədə etibarlı və dünya standartlarına cavab verən nəqliyyat sistemini təmin edib. Bu gün respublikada nəqliyyat-yol kompleksinin inkişafı istiqamətində görülən işlər, o cümlədən, magistral avtomobil yollarının bərpası, ən ucqar kəndlərə yolların çəkilməsi və s. istiqamətində reallaşan layihələr dövlətin bu sahəyə olan diqqətinin bariz nümunəsidir.

Bu sahəyə ayrılan diqqətin nəticəsidir ki, müasir yol infrastrukturu ölkə iqtisadiyyatının şaxələndirilməsinə, regionlarımızın sürətli inkişafına, eləcə də xalqın sosial rifahının yüksəldilməsinə öz töhfəsini verir.

YEVLAX OLİMPİYA İDMAN KOMPLEKSİ

Azərbaycanda idmana və idmançılara göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün idmançılarımız dünya və Avropa çempionatlarında, beynəlxalq yarışlarda uğurlu nəticələr qazanır və Vətənimizi layiqincə təmsil edirlər. Azərbaycan dünyada artıq idman ölkəsi kimi tanınır. Ölkəmizdə keçirilən birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları da bir daha bunu sübut etdi ki, Azərbaycanda idmana və idmançılara yüksək diqqət və qayğı vardır, hər bir şərait yaradılmışdır. Azərbaycanda idmanın inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Bu kompleks tədbirlərə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən mövcud idman qurğularının qorunub saxlanılması, yenidən qurulması, beynəlxalq standartlara uyğun yeni stadionların, Olimpiya İdman komplekslərinin tikilib istifadəyə verilməsi daxildir. Respublikamızın şəhər və rayonlarında onlarla Olimpiya İdman Kompleksi, Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Stend Atıcılığı üzrə İdman Kompleksi və digər iri idman qurğuları tikilib istifadəyə verilib. İdmanın müxtəlif növləri üzrə Azərbaycan milli komandalarının təlim-məşq toplanışlarının, idmançıların gündəlik məşqlərinin, eləcə də beynəlxalq idman turnirlərinin, respublika və zona yarışlarının keçirildiyi bu idman obyektləri, eyni zamanda, əhalinin də ən çox üz tutduğu məkanlardandır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax Olimpiya İdman Kompleksində görülmüş işlərlə tanış olub. Bu kompleks Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramm”ı çərçivəsində inşa olunur.

Ardı Səh. 3

Uğurlu inkişaf modeli:

regionlarda reallaşdırılan sosial-iqtisadi layihələr

Əvvəli Səh. 2

Tikintisinə 2024-cü ilin yanvarında başlanılan kompleksin əsas binasında yerləşən universal idman zalı 1100 tamaşaçı tutumuna malikdir. Burada basketbol, voleybol, həndbol, minifutbol, badminton, gimnastika, cüdo, güləş, taekvondo, boks, karate və idmanın digər növləri üzrə məşqlərin və yarışların keçirilməsi nəzərdə tutulur. Binada, eyni zamanda, 80 nəfərlik iclas zalı, hakim, həkim, məşqçilər, şərhçilər üçün otaqlar, kafe olacaq. Komplekslə 21 otaqdan ibarət 42 yerlik dördmərtəbəli mehmanxana və restoran da fəaliyyət göstərəcək. Burada 1300 tamaşaçı tutumuna malik tribunası olan, standartlara cavab verən futbol meydançası, həmçinin iki minifutbol meydançası yaradılacaq. Qeyd edək ki, bu il sentyabr ayının sonunda Azərbaycanda keçiriləcək Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunları zamanı boks idman növü üzrə yarışlar Yevlax Olimpiya İdman Kompleksində təşkil ediləcək.

70 MİN SAKİNİN İÇMƏLİ SU TƏCHİZATINA HESABLANMIŞ LAYİHƏ

Son illərdə ölkə üzrə əhalinin təmiz içməli suya tələbatının təmin olunması istiqamətində mühüm layihələr icra edilib. Bu müddət ərzində Bakıda Mərkəzi Laboratoriya və 9 regional laboratoriya yaradılıb. Görülmüş işlər nəticəsində ölkədə içməli su təchizatı üzrə itkilər son 20 ildə 62 faizdən 40 faizə qədər azaldılıb. 8,1 min kilometr tullantı və yağış su xətləri inşa edilib. Şəhər, rayon və qəsəbələr üzrə ümumi məhsuldarlığı sutkada 250 min kubmetr olan 28 ədəd tullantı sutəmizləyici qurğu quraşdırılıb. Bakı və Abşeron yarımadası üzrə isə 5 ədəd bu cür qurğu istismara verilib. Bundan başqa, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi də tikilib. Qeyd edək ki, Yevlax şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri 1950-1960-cı illərdə yaradılıb. Şəhərin ilkin su mənbələri subartezian quyuları və Kür çayı olmuşdur. Hazırda istismarda olan 15 subartezian quyusunun imkanları tələbatı ödəmirdi. Quyu zonasından şəhərə çəkilmiş ümumi uzunluğu 27 kilometr olan 2 magistral kəmər dəfələrlə cari və əsaslı təmir edilsə də, dayanıqlı su təchizatına imkan vermirdi. Kür çayından nasoslar vasitəsilə götürülən su ilkin təmizlənərək abonentlərə verilirdi.

Şəhərin 191 kilometr uzunluğunda mövcud paylayıcı su şəbəkəsi uzun illər istismar olunaraq yararsız vəziyyətə düşdüyündən tələbatı ödəmirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax şəhəri qumsüzgəc texnologiyalı sutəmizləyici qurğunun açılışında iştirak edib. Bu layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 70 min sakinin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

Layihəyə uyğun olaraq ötən dövr ərzində şəhəri dayanıqlı içməli su ilə təmin etmək üçün Kür çayının sahilində məhsuldarlığı sutkada 20 min kubmetr olan sürətli qumsüzgəc texnologiyalı təmizləyici qurğunun tikintisi işləri həyata keçirilib. Qurğuda 16 ədəd süzgəc quraşdırılıb, emal prosesindən sonra təmiz suyun toplanması məqsədilə ümumi həcmi 2 min 500 kubmetr olan 2 su anbarı tikilib. Təmizləyici qurğuda zərərsizləşdirmə, əks-yuma prosesinin aparılması üçün xüsusi nasoslar, kompleksin enerji təchizatı məqsədilə transformator və generator quraşdırılıb. Həmçinin uzunluğu 86 kilometr paylayıcı su təchizatı şəbəkəsi inşa olunub, 4 min 230 ədəd ev birləşməsi verilərək sayğac quraşdırılıb.

BÖLGƏDƏ İXTİSASLI KADR HAZIRLIĞININ TƏMİNİNƏ TÖHFƏ

Ölkədə ümumi gücü 3000 meqavatdan artıq elektrik enerjisi istehsal edən 45 stansiya tikilib. Təkcə işğaldan azad edilən ərazilərdə tikilən Su Elektrik stansiyalarının sayı 38, gücü isə 307 meqavatdır. Ümumilikdə son illərdə görülən işlər nəticəsində hər kilovat-saata görə sərf edilən şərti yanacaq 284 qramdan 252 qrama düşüb, 2,8 milyard kubmetr təbii qaza qənaət edilib, 1 milyon ton karbon qazı emissiyasının atmosferə atılmasının qarşısı alınıb. Qeyd edək ki, son beş ildə "AzərEnerji" ASC tərəfindən ümumilikdə 47 yerdə sistem əhəmiyyətli ötürücü yarımstansiya tikilib və ya tam yenidən qurulub, 2.500 kilometr uzunluğunda yüksək gərginlikli elektrik verilişi xətti çəkilib.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 23-də "Yevlax" qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin açılışında iştirak edib. "Yevlax" qovşaq yarımstansiyası 60 il əvvəl tikildiyindən tələbatı ödəmirdi. Respublikanın Mərkəzi Aran regionunun enerji təchizatının yaxşılaşdırılması, istehlakçıların fasiləsiz keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi, enerjisistemin dayanıqlılığının və etibarlılığının artırılması məqsədilə bu yarımstansiya tamamilə yenidən qurulub. Yevlaxın tam, Bərdə və Ucar rayonlarının isə müəyyən hissəsi daxil olmaqla 180 mindən artıq əhalinin elektrik təchizatında, o cümlədən "Varvara" Su Elektrik Stansiyasında istehsal edilən yaşıl enerjinin enerjisistemə ötürülməsində xüsusi əhəmiyyətə malik bu yarımstansiyada 110 kilovoltluq yeni açıq paylayıcı qurğu quraşdırılıb, ərazidə yeni Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.

Yarımstansiyanın ərazisində bütün zəruri avadanlıq, qurğu və simulyatorlarla təmin edilən üçmərtəbəli Regional Təlim-Tədris və Laboratoriya Mərkəzi yaradılıb. Mərkəzdə 12 fərqli istiqamət üzrə mühəndis hazırlığı və ixtisasartırma kursları təşkil olunacaq. Bu da bölgədə ixtisaslı kadr hazırlığını təmin etməklə məşğulluğun artırılmasına töhfə verəcək.

Tədris prosesinin əyani keçirilməsi, bilik və bacarıqların daha yaxşı mənimsənilməsi üçün yarımstansiyanın həyətyanı sahəsində transformatorlar, müasir kommutasiya qurğuları, hava və kabel xətlərinin komponentləri ilə tam təchiz edilmiş tədris simulyatoru yaradılıb.

YENİ NƏSİL RƏQƏMSAL AVADANLIQ KOMPLEKSLƏRİNİN İŞLƏNİB HAZIRLANMASININ TƏMİNİ

Yevlaxda "Azərişıq" ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin açılışı da önəmli hadisələrdən biridir. İdarəetmə Mərkəzi vasitəsilə kənd təsərrüfatı sahələrinin, dövlət əhəmiyyətli strateji obyektlərin, iaşə və xidmət obyektlərinin, xüsusən də əhalinin elektrik enerjisi təchizatında fasiləsizliyin, dayanaqlılığın və səmərəli idarəetmənin təmin olunması həyata keçiriləcək. Burada 35/10 kV-luq hər birinin gücü 6,3 MVA olan iki güc transformatoru, müasir avadanlıqlarla təchiz olunmuş 35 və 10 kV-luq qapalı paylayıcı qurğular quraşdırılıb. Mərkəzin elektrik təchizatı üçün "Yevlax" yarımstansiyasından 14 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilib. "Dəliməmmədli", "Kürəkçay", "Ağdaş", "Ağsu", "Tərtər" və "Dəmir Beton Məmulatları" yarımstansiyaları Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinə inteqrasiya olunub. Bununla da vahid mərkəzdən operativ dispetçer xidməti tərəfindən texniki parametrlərin daimi izlənməsi və idarə olunması təmin edilib. Mərkəz elektrik şəbəkələrinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həlli üçün layihələndirilib. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir.

ÖLKƏDƏ 9 SƏNAYE PARKI VƏ 4 SƏNAYE MƏHƏLLƏSİ FƏALİYYƏT GÖSTƏRİR

Regionların tarazlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətlərindəndir. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar mühit, güzəşt, imtiyaz və stimullar regionlarda müsbət iqtisadi dəyişiklikləri və nailiyyətləri təmin edir. Elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan bu cür müasir infrastruktur aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsul istehsalında və ölkənin ixrac potensialının gücləndirməsində əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, hazırda ölkədə 9 sənaye parkı və 4 sənaye məhəlləsi fəaliyyət göstərir. Sənaye zonaları üzrə ümumi investisiya həcmi 8 milyard manatdan çox olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 7 milyard manata yaxın investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb. 2015-ci ildən 2025-ci ilin I rübü də daxil olmaqla sənaye zonalarında ümumilikdə 16 milyard manatdan artıq məhsul satışı həyata keçirilib, bunun 5 milyard manatdan çox hissəsi ixrac edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Yevlax pilot aqroparkının açılışı da həyata keçirilən layihələr sırasındadır. Ümumi sahəsi 2.807 hektar, illik istehsal gücü 20 min tondan çox qarışıq meyvə, 20 milyon ədəd damazlıq yumurta və 1 milyon ədəd ting olan bu aqropark ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan dövlət aqroparkıdır. Rezidentlər aqroparkda dövlət vəsaiti hesabına zəruri infrastrukturla - su, enerji, qaz və yolla təmin ediliblər.

Səmərəliliyin artırılması üçün aqroparkda "ağıllı" idarəetmə sistemi tətbiq olunur. Bu məqsədlə əkin aparılan bağlarda iqlim stansiyaları, xüsusi kameralar və torpaq nəmlik sensorları qurulub. Aqroparkda 36 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Rezidentlər tərəfindən bu günədək aqroparka 57 milyon manatadək investisiya yatırılıb, 200-ə yaxın daimi, 500-ə yaxın mövsümi iş yeri yaradılıb. Aqroparkın konsepsiyasına uyğun olaraq, intensiv meyvə bağlarının salınması, heyvandarlıq, quşçuluq və əkinçilik təsərrüfatlarının, həmçinin sənaye zonasında emal sahələrinin və logistik mərkəzin yaradılması ilə özəl investisiyaların 100 milyon manata çatdırılması, 500 daimi və 1000-dən çox mövsümi iş yerinin yaradılması nəzərdə tutulur. Görülən işlərin davamı olaraq sənaye zonasında logistik mərkəz, emal müəssisələri, eləcə də heyvandarlıq kompleksi və məhsulların topdansatış bazarı da yaradılacaq.

GORANBOYDA REALLAŞDIRILAN SOSİAL LAYİHƏLƏR

Davamlı iqtisadi inkişaf mərhələsində olan Goranboyda reallaşdırılan sosial layihələr əhalinin rahatlığına, onların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Goranboy rayonunda "Konstralab Industries" QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak edib. Goranboy rayonunun Qazanbulaq kəndində yaradılan müəssisə gips-karton, astar və üzlük gips məhsulları istehsal edəcək. Müəssisədə il ərzində 10 milyon kvadratmetr gips-karton lövhə, 150 min ton gipsəsaslı quru qarışıqlar istehsal olunacaq. Müasir avadanlıqla təchiz olunan müəssisədə istehsal edilən məhsulların yerli bazarda satışı ilə yanaşı, bir neçə ölkəyə ixracı da nəzərdə tutulur. Burada 200 nəfər daimi işlə təmin ediləcək. İstehsal zamanı istifadə edilən əsas xammal - yerli gips daşı Azərbaycanın müxtəlif regionlarındakı yataqlardan tədarük olunacaq. Bununla yanaşı, gələcək inkişaf strategiyası çərçivəsində müəssisə fəaliyyətini genişləndirərək metal profil istehsalının təşkilini hədəfləyir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm layihələrin icrası ölkə iqtisadiyyatının şaxələndirilməsinə, yeni iş yerlərinin açılmasına, xüsusilə sənayenin müxtəlif sahələrinin davamlı inkişafına böyük təkan verib. Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə müasir sənaye müəssisələri, yeni istehsal sahələri yaradılır, daxili tələbatın ödənilməsində yerli məhsulların payı artır, ixrac imkanları genişlənir. Belə müəssisələrin bölgələrdə yaradılması isə ümumilikdə regionların sosial-iqtisadi inkişafını təmin etməklə, onların iqtisadi potensialının möhkəmləndirilməsində, məşğulluğun artırılmasında da mühüm rol oynayır. Əlbəttə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi inkişaf modeli ölkəmizin dayanıqlı iqtisadi yüksəlişini təmin etməkdədir.

Nəzakət ƏLƏDDİNQIZI

“Bu siyasi həmrəylik təkcə tarixi dostluğa deyil, ortaq strateji baxışlara əsaslanır”

"Internews Pakistan" Laçın Zirvəsinin əhəmiyyəti fonunda Azərbaycan-Pakistan münasibətlərindən yazıb

Pakistan İslam Respublikasının nüfuzlu ”Internews Pakistan” İnformasiya Agentliyinin rəsmi veb-saytında ”Respublika” qəzetinin baş redaktoru Hümbət Musayevin ”Azərbaycan-Pakistan əlaqələrinin yeni mərhələsi: strateji əhəmiyyət və Laçın zirvəsi” adlı məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, İslamabadda yerləşən müstəqil informasiya agentliyi ”Internews Pakistan” əsasən çap və elektron media sahəsində ixtisaslaşıb, mətnləri, foto və video materialları rəqəmsal multimedia formatında təqdim edir. Hər gün aktual hadisələrlə bağlı xəbərlər, məqalələr, analitik təhlillər və tematik oçerklər yayımlanır. Agentlik ölkə daxilində və xaricində fəaliyyət göstərən 500-dən çox təşkilata - qəzetlərə, radiostansiyalara, televiziya kanallarına və internet portallarına informasiya xidməti göstərir. Nüfuzlu ”Internews Pakistan” informasiya agentliyinin rəsmi veb-saytında Azərbaycan-Pakistan münasibətlərinə dair məqalənin dərc olunması isə iki ölkə arasında media və informasiya sahəsində əməkdaşlığın daha da dərinləşməsi baxımından mühüm addım hesab olunur.

Müəllif qeyd edir ki, Azərbaycan-Pakistan münasibətlərinin əsası 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsindən dərhal sonra qoyulub. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olub və 1992-ci ildə diplomatik münasibətlərin qurulması ilə iki ölkə arasında dostluq əlaqələrinin rəsmi mərhələsi başlayıb. Bu möhkəm tarixi əsas sonrakı onilliklər ərzində siyasi, iqtisadi və hərbi sahələrdə əməkdaşlığın daha da inkişaf etməsi üçün əlverişli zəmin yaradıb.

”Respublika” qəzetinin baş redaktoru Hümbət Musayev yazır ki, bu ilin mayında Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycanın Müstəqillik Günü ərəfəsində Laçına səfəri və burada keçirilmiş yüksəksəviyyəli Laçın Zirvəsi Azərbaycan-Pakistan münasibətlərində yeni dövrün başlanğıcı olub. Bu Zirvə ilk dəfə işğaldan azad edilmiş Azərbaycan torpağında üç qardaş ölkənin - Azərbaycanın, Pakistanın və Türkiyənin liderlərini bir araya gətirməklə simvolik və strateji dəyər kəsb edir.

Məqalədə xüsusilə qeyd olunur ki, dövlətimizin başçısı Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün rəmzi kimi Laçında belə bir yüksəksəviyyəli tədbirin keçirilməsini ölkənin suverenliyinin bərpası və dirçəliş prosesinin bariz nümunəsi kimi təqdim edib. Prezident İlham Əliyev Pakistana və

Türkiyəyə Azərbaycanın haqq işinə göstərdikləri mənəvi-siyasi dəstəyə görə təşəkkürünü bildirib, üçtərəfli əməkdaşlığın strateji səviyyədə davam etdirilməsinin vacibliyini xüsusi vurğulayıb. Prezidentin bu mövqeyi, həm regional təhlükəsizliyə, həm də əməkdaşlıq platformalarının institusionallaşmasına yönəlik siyasi iradənin aydın ifadəsidir.

Hümbət Musayevin fikrincə, Zirvənin Müstəqillik Günündə keçirilməsi bir tərəfdən, Azərbaycanın ərazi bütövlüyü üzərində suverenlik hüququnun təsdiqi, digər tərəfdən isə qardaş ölkələrin bu prosesə dəstəyini göstərir. Laçın Beynəlxalq Hava Limanının açılışı ilə eyni günə təsadüf edən görüş regionun inteqrasiyası və bərpası baxımından mühüm dönüş nöqtəsinə çevrilib.

Laçın Zirvəsi təkcə rəmzi xarakter daşımır, həm də konkret razılaşmalarla yadda qalıb. İqtisadi sahədə SOCAR ilə Pakistanın enerji qurumları arasında imzalanmış sazişlər, o cümlədən neft kəməri layihələri, mayeləşdirilmiş qazın tədarükü və neft məhsullarının uzunmüddətli ixracı iki ölkə arasında praktiki əməkdaşlıq istiqamətlərini formalaşdırıb və iqtisadi tərəfdaşlığın möhkəmlənməsinə töhfə verib. Bundan əlavə, Azərbaycanın Pakistan iqtisadiyyatına 2 milyard dollar həcmində sərmayə qoymaq planı iki ölkə arasında yeni strateji tərəfdaşlıq mərhələsinin başlandığını göstərir.

Hərbi sahədə də əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. Xüsusilə Pakistan istehsalı olan JF-17 Thunder qırıcılarının Azərbaycana satışı, ”Üç Qardaş” birgə hərbi təlimlərinin təşkili və müdafiə sənayesi sahəsində həyata keçirilən layihələr bu əməkdaşlığın daha da genişlənəcəyindən xəbər verir. Bu tərəfdaşlıq yalnız ikitərəfli xarakter daşımır, eyni zamanda, Türkiyənin iştirakı ilə regional təhlükəsizlik və sabitlik üçün mühüm amilə çevrilir.

Müəllif qeyd edir ki, perspektivlər kontekstində Azərbaycan ilə Pakistan arasında əməkdaşlıq yalnız enerji və hərbi sahələrlə məhdudlaşmır. Mədəniyyət, təhsil və informasiya texnologiyaları kimi sahələrdə qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün güclü potensial mövcuddur. Xüsusilə Naxçıvan-Lahor qardaşlaşması və nümayəndə heyətlərinin qarşılıqlı səfərləri xalqlar arasında münasibətlərin dərinləşməsinə töhfə verir. Bu əməkdaşlıq yalnız hökumətlər səviyyəsində deyil, həm də cəmiyyətlərarası təmaslarda özünü göstərməlidir.

”Respublika” qəzetinin baş redaktoru beynəlxalq platformalarda nümayiş etdirilən qarşılıqlı siyasi dəstəyə də diqqət çəkərək qeyd edir ki, Azərbaycan daim Pakistanın Kəşmir məsələsindəki haqlı mövqeyini dəstəkləyir, Pakistan isə Qarabağla bağlı Azərbaycanın suverenliyini qəti şəkildə müdafiə edir. Bu siyasi həmrəylik təkcə tarixi dostluğa deyil, ortaq strateji baxışlara əsaslanır.

Laçın Zirvəsi ilə Azərbaycan-Pakistan münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, əməkdaşlıq yalnız siyasi bəyanatlarla deyil, həm də enerji, müdafiə, nəqliyyat və humanitar sahələri əhatə edən konkret layihələrlə möhkəmləndirilib. Bu isə onu göstərir ki, iki ölkə arasındakı münasibətlər artıq dərinləşən strateji ittifaq xarakteri daşıyır. Baş redaktorun qənaətinə görə, Azərbaycan-Pakistan münasibətlərinin bugünkü vəziyyəti və gələcək inkişaf xətti hər iki ölkə, həm də ümumilikdə region üçün sabitlik, əməkdaşlıq və qarşılıqlı fayda vəd edir. Münasibətlərin təməlində qarşılıqlı hörmət, etimad və dərin tarixi-mədəni bağlılıq dayanır. Laçın Zirvəsi bu strateji vizyonun mühüm ifadələrindən biri olub və üçtərəfli əməkdaşlığın davamlı inkişafı üçün güclü platforma yaradıb.

Hümbət Musayevin məqaləsinin ”Internews Pakistan” kimi nüfuzlu beynəlxalq informasiya platformasında yayımlanması Azərbaycan və Pakistan arasında mövcud qardaşlıq, strateji tərəfdaşlıq münasibətlərinin iki ölkə üçün vacibliyinin geniş oxucu auditoriyalarına çatdırılması və daha da möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Məqaləni linkə keçid etməklə ətraflı oxumaq mümkündür.

“Silahlı Qüvvələrimizlə haqlı olaraq qürur duyuruq"

“Azərbaycan Ordusunun nizami ordu kimi formalaşdırılması və vahid komandanlığa tabe etdirilməsi böyük dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olmuşdur”. Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib. O bildirib ki, sonrakı mərhələdə isə ordumuzun kompleks şəkildə inkişafı, hərbi texnika və təchizatının gücləndirilməsi, yüksək peşəkarlığa malik zabitlərin və şəxsi heyətin formalaşdırılması Azərbaycan dövlətinin mühüm nailiyyətlərindəndir: ”Bütün bu uğurlar, ardıcıl şəkildə həyata keçirilən dövlət siyasətinin nəticəsidir. Məhz bu səbəbdən Azərbaycan Ordusu tarixinin hər yeni səhifəsini şərəflə yazmaq gücünə və imkanına malikdir.

Ordumuz 44 günlük Vətən müharibəsində tariximizin ən şanlı səhifələrindən birini yazdı. Azərbaycan Silahlı Qüvvələri bu müharibədə yalnız hərbi güc nümayiş



etdirməklə kifayətlənmədi, eyni zamanda XXI əsrin müasir döyüş texnologiyalarından məharətlə istifadə edərək, hərbi strateji planlama və yüksək hazırlıq səviyyəsi ilə bütün dünyaya nümunə göstərdi. Müharibə zamanı ordumuz ən müasir pilotsuz uçuş aparatlarından (PUA), kəşfiyyat və müşahidə sistemlərindən, dəqiq nişan alınma və zərbə texnologiyalarından, eləcə də real vaxtda koordinasiya imkanlarından uğurla istifadə etdi. Bu texnoloji və taktiki üstünlüklər Azərbaycan əsgərinin yüksək döyüş ruhu, vətən sevgisi və fədakarlığı ilə birləşərək düşmən üzərində tam və qəti zəfərin əldə olunmasına gətirib çıxardı. Hərbi əməliyyatlar zamanı ordumuzun nümayiş etdirdiyi çeviklik, peşəkarlıq və texniki üstünlük bu gün dünya hərb tarixi üçün öyrənilməsi vacib olan nümunəyə çevrilmişdir. Elə buna görə də bu zəfər, yalnız Azərbaycan xalqının yaddaşında deyil, eyni zamanda gələcək nəsillərə örnək olaraq məktəblərin dərsliklərində, hərbi tədris proqramlarında və strateji araşdırmalarda xüsusi yer tutmaqdadır”.

”Bu gün Azərbaycan Silahlı Qüvvələri ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təminatçısıdır. Müstəqil dövlətimizin əsas dayaqlarından biri olan güclü ordu, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə daim yenilənir, inkişaf edir və ən müasir standartlara uyğunlaşdırılır. Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi və döyüş hazırlığının artırılması istiqamətində atılan addımlar sistemli və davamlı xarakter daşıyır. Azərbaycan xalqı bu gün öz ordusuna böyük inam və iftixarla yanaşır. Biz fəxr edirik ki, ölkəmizin sərhədlərini, müstəqilliyini və sabitliyini qoruyan belə güclü və peşəkar bir ordumuz var. Ordumuz təkcə Vətən müharibəsində deyil, eyni zamanda regionda sülh və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayan qüvvədir. Silahlı Qüvvələrimizlə haqlı olaraq qürur duyuruq. Bu qürur yalnız keçmişin zəfərlərinə deyil, gələcəyin uğurlarına olan inamın da təməlidir” - deyə o, əlavə edib.

Söylü Ağazadə

Müstəqil Azərbaycan dövlətçiliyinin banisi

Azərbaycan Prezidentinin səlahiyyəti Ali Sovetinin Sədri Heydər Əliyevə həvalə olundu

Ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrindəki uğurlar və nailiyyətlər Böyük Şəxsiyyətin adı ilə sıx bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətini və xalqını zamanın ağır və sərt sınaqlarından uğurla çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və həyata keçirilməsi üçün mühüm islahatlar həyata keçirmişdir. Onun siyasi hakimiyyətdə olduğu illər ölkənin bütün sahələrində yeni dövrün başlanması kimi xarakterizə olunur. 1993-cü il iyunun 24-ü 32 il bundan əvvəl Azərbaycan Respublikası Prezidentinin səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevə həvalə olunur. O zaman ölkəmiz öz həyatının çox ciddi siyasi-ictima çətinlikləri ilə üz-üzə qalmışdır. 1993-cü ilin iyununda baş vermiş hadisələr müstəqilliyini bərpa etmiş Azərbaycanı uçuruma aparırdı. Vurğulayaq ki, müstəqilliyimizin bərpası asan əldə olunmadı, gərgin ictimai-siyasi vəziyyət və böyük qurbanlar bahasına əldə edildi. 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilməmişdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. O zaman ölkəmiz öz həyatının çox ciddi siyasi-ictima çətinlikləri ilə üz-üzə qalmışdır. 1993-cü ilin iyununda baş vermiş hadisələr müstəqilliyini bərpa etmiş Azərbaycanı uçuruma aparırdı. Vurğulayaq ki, müstəqilliyimizin bərpası asan əldə olunmadı, gərgin ictimai-siyasi vəziyyət və böyük qurbanlar bahasına əldə edildi.

”1993-CÜ İLİN İYUN AYINDA AZƏRBAYCANDA BÖYÜK DÖVLƏT BÖHRANI YARANDI”

Azərbaycanı gözü götürməyən qüvvələr xalqımızın uğrunda ardıcıl mübarizə apardığı milli azadlığına, dövlət müstəqilliyinə mane olmaq və onun mübarizə əzmini qırmaq üçün ən məkrli siyasi təxribatlara əl atdılar. Ermənistanın Azərbaycan torpaqlarının işğalı, respublikamızı daxildən parçalamaq və xalqımızı vətəndaş müharibəsi girdabına sürükləmək kimi cəhdləri Azərbaycanı olduqca çətin bir vəziyyətlə üz-üzə qoydu. Öz müstəqilliyini bərpa etmiş Azərbaycanın idarəçiliyində duranlar AXC-Müsavat cütlüyü ölkəni parçalanmaq və tamamilə məhv olmaq təhlükəsi ilə üzbəüz qoymuşdu. Çünki hakimiyyətdə olan sərişтəsiz rəhbərlər mövcud təhlükələrin qarşısının alınması istiqamətində lazımi tədbirləri görmək gücündə deyildilər. 1993-cü ilin yayında ölkədə vəziyyət getdikcə ağırlaşdı, Hakimiyyət strukturlarına, o cümlədən, silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı isə, 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Artıq bir sıra ərazilərdə - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər.

4 iyun 1993-cü ildə Gəncədə Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verdi. Məlum hadisə nəticəsində hökumətə tabe olmayan hərbçilərlə hökumət qüvvələri arasındakı toqquşmada, ümumilikdə, 35 nəfər həlak oldu.

Gəncə hadisələri kimi tarixə düşən 4 iyun hadisələri AXC-Müsavat hakimiyyətinin iflası ilə nəticələndi. 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı təhlükədən xilas etdi. O dövrdə baş verən hadisələr bir daha tarixi gerçəkliyi üzə çıxarmış olur. Belə ki, 1993-cü ilin iyununda xalqın dəvəti ilə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı. Ulu Öndər Heydər Əliyev bu məsələ ilə bağlı çıxışlarının birində belə deyirdi: ”1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar, belə bir zamanda, əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər”.

İctimai, siyasi və tarixi əhəmiyyətə malik olan 1993-cü ilin 15 İyun Milli Qurtuluş Günü - Azərbaycanın inkişafında, müstəqilliyində müstəsna rol oynayan tarixi gündür. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğradaraq, 1993-cü il iyunun 9-da Bakıya gəldi və 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Ulu Öndər Heydər Əliyevin öz müqəddəs xilaskar missiyasıyla böyük siyasətə qayıdışı ilə Azərbaycanda illərlə davam edən anarxiyaya, siyasi hakimiyyətsizliyə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və özbaşınalıqlarına son qoymuş oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri ən yeni tariximizin qara ləkələri kimi keçmişə həkk olunub. Bu təxribatlar müdrik siyasətçinin son dərəcə tədbirli, təmkinli və uzaqgörən siyasəti sayəsində baş tutmadı.

”AZƏRBAYCANDA HƏQİQİ DEMOKRATİYA PRİNSİPLƏRİ YARANMALIDIR, İNKİŞAF ETMƏLİDİR”

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyev qanunun aliliyi, azad vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması zəruriliyini dönə-dönə vurğulayırdı: ”Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır. Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır. Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır.”

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Heydər Əliyevin müəllifi olduğu 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi.

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. 1994-cü ildə milli neft strategiyasının əsası qoyuldu. ”Əsrin müqaviləsi” imzalandı. Neft strategiyasının beynəlxalq layihələrin və iqtisadi proqramların həllinə doğru istiqamətləndirilməsi ölkəmizdə bu tükənməz sərvətdən əldə olunan gəlirin qat-qat artırılmasına səbəb oldu.

SÜRƏTLİ İNKİŞAF MƏRHƏLƏSİ

Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasaydı, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Prezident İlham Əliyevin son 22 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Azərbaycan ordusunun döyüş taktikası dünya ölkələrində öyrənilir. Azərbaycan 44 günlük Vətən müharibəsində hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazaraq, daha yüksək zirvələr fəth edəcəkdir.

Müasir həyatımızda Azərbaycana marağın artması Ulu Öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət nəticəsində mümkün olub. Müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar aparılır, Azərbaycan regionun lider dövlətinə çevrilib, diplomatiya sahəsində uğurlar əldə edilib. Prezident İlham Əliyevin imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini və insanların rifahının yüksəlməsini təmin edib. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu gün Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Müstəqil Azərbaycanın beynəlxalq aləmdə iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirməsi, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, dünyanın nüfuzlu təşkilatlarının Azərbaycanın mövqeyini dəstəkləyən qərar və qətnamələr qəbul etməsi ölkəmizin seçdiyi yolun düzgün olduğunu təsdiqləyir.

Zümrüd BAYRAMOVA

Baş nazir Əli Əsədovun sədrliyi ilə iclas keçirilib

İyunun 23-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması ilə bağlı yaradılmış Komissiyanın ilk iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda Baş nazirin müavinləri - işçi qrupların rəhbərləri, hökumət üzvləri və müvafiq qurumların nümayəndələri iştirak ediblər.

Baş nazir Əli Əsədov bildirib ki, Azərbaycan 44 günlük müharibə və pandemiyadan sonra yaranmış vəziyyətə, yeni şərtlərə və resurslara əsaslanaraq 2021-2030-cu illəri əhatə edən strateji hədəflər müəyyənləşdirib. Bu strateji hədəflər Prezident İlham Əliyevin imzaladığı Sərəncamda 5 Milli Prioritet kimi öz əksini tapıb. Milli Prioritetlərin həyata keçirilməsi məqsədilə dövlətimizin başçısının 2022-ci ildə imzaladığı sərəncamlarına əsasən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Böyük Qayıdışa dair I Dövlət Proqram"ı qəbul edilib. Strategiyanın həyata keçirilməsi üçün bu günədək dövlət büdcəsindən 7 milyard manat vəsait ayrılıb, nəzərdə tutulmuş tapşırıqlar təqribən 78 faiz səviyyəsində icra olunub.

"Böyük Qayıdışa dair I Dövlət Proqram"ının ümumi icra faizi təqribən 79 faizdir. Azad olunmuş ərazilərin bərpası üçün 2025-ci il də daxil olmaqla 21,6 milyard manat vəsait ayrılıb. Azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanıb, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunub. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpası həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli qoyulub.

İclasda Komissiyanın iş reqlamenti müəyyənləşdirilib, görüləcək işlər və yaxın perspektivdə atılacaq addımlarla bağlı müzakirə aparılıb. Prezidentin sərəncamlarından irəli gələn tapşırıqların maksimum səmərə və keyfiyyətlə, vaxtında icra olunması, alt işçi qrupların iclaslarının ayda bir dəfədən az olmayaraq keçirilməsi, mütəmadi olaraq işin gedişi haqqında məlumat verilməsi tapşırılıb. İclasda Strategiya və Dövlət Proqramının hazırlanması və yekunlaşdırılması üçün konkret vaxt qrafiki müəyyənləşdirilib.

Baş nazir qeyd edib ki, Strategiya və Dövlət Proqramı hazırlanarkən mövcud maliyyə imkanları nəzərə alınmalı, hədəflərin realizasiyası üçün nəzərdə tutulan tədbirlər real, dəqiq və ölçülə bilən indikatorlara söykənməli, Strategiya və Dövlət Proqramı hazırlanarkən digər aidiyyəti sənədlər və 1-ci Dövlət Proqramında nəzərdə tutulan, daha sonrakı müddətə optimallaşdırılan layihələr nəzərə alınmalıdır. Əli Əsədov vurğulayıb ki, Strategiyadan və Dövlət Proqramından irəli gələn konseptual məsələlərin və yekun layihələrin mərhələlərlə İqtisadi Şurada da müzakirəsi nəzərdə tutulur.

Xatırladaq ki, Azərbaycan Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamı ilə "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın 9 ay müddətində hazırlanması üçün Nazirlər Kabinetinə tapşırıq verilib. Həmin tapşırığın icrasının təmin edilməsi məqsədilə imzalanmış Nazirlər Kabinetinin 2025-ci il 18 iyun tarixli Sərəncamına əsasən Strategiya və Dövlət Proqramı üzrə layihələrin hazırlanmasında aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üçün Baş nazirin sədrliyi ilə Komissiya yaradılıb və tərkibi təsdiq edilib. Komissiyanın tərkibində Strategiyanın və Dövlət Proqramının hazırlanması üzrə iki işçi qrup yaradılıb və tərkibi təsdiqlənib, Baş nazirin müavinləri - Şahin Mustafayev və Samir Şərifov işçi qrupların rəhbəri təyin olunub. Strategiyanın hazırlanması məqsədilə 9, Böyük Qayıdış Dövlət Proqramı üzrə isə 4 alt işçi qrup yaradılıb.

Qeyd edək ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, son illərdə əldə olunmuş sosial-iqtisadi nailiyyətlərin davamlı inkişafının təmin edilməsi, birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, əlverişli biznes mühitinin daha da gücləndirilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun artırılması, eləcə də işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin olunması üçün məqsədyönlü siyasət və islahat istiqamətlərinin müəyyənləşdirilməsi vacib hesab olunur.

Kolumbiya mətbuatı: Azərbaycan - qlobal diqqətin yeni mərkəzi

Kolumbiyanın aparıcı xəbər agentliyi "Las2orillas"da jurnalist Roberto Trobaxonun müəllifi olduğu "Qlobal diqqətin yeni mərkəzi: Kolumbiyaya çox yaxın ölkə - Azərbaycan" sərlövhəli məqalə dərc edilib. Məqalədə getdikcə möhkəmlənən Azərbaycan-Kolumbiya ikitərəfli münasibətlərinin müxtəlif aspektlərinə toxunulur, dost xalqlar arasında onları bir-birinə daha da yaxınlaşdıran səmərəli mübadilələr həyata keçirildiyi qeyd olunur.

Yazıda Azərbaycan Hökumətinin ən çətin anlarda Kolumbiyanın yanında olduğu bildirilir, paytaxt Boqotada çıxan meşə yanğınlarının fəsadlarının aradan qaldırılması və Duitama şəhərində paramo qoruqlarının mühafizəsi ilə əlaqədar bu ölkəyə maliyyə yardımları göstərdiyi vurğulanır.

Diqqətə çatdırılır ki, Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş ərazilərini azad etdikdən sonra bu ərazilərin minalardan təmizlənməsi istiqamətində ciddi səylər göstərir və minatəmizləmə sahəsində qazandığı mühüm təcrübəni Kolumbiya tərəfi ilə bölüşür.

Müəllif, eyni zamanda, iki ölkə arasında təhsil və mədəniyyət sahələrində münasibətlərin inkişafının diqqətəlayiq olduğunu vurğulayır, gənc kolumbiyalıların Azərbaycan tərəfinin təqdim etdiyi təqaüd proqramları əsasında bu ölkənin nüfuzlu universitetlərində təhsil almaq imkanına malik olduqlarını bildirir.

Məqalədə, həmçinin cari ilin fevralında Kolumbiya Konqresinin tarixi binasında Xocalı qurbanlarının xatirəsinə həsr olunmuş əsərlərdən ibarət "Xocalı harayı" adlı rəsm sərgisi təşkil edildiyi, eyniadlı kitabın ölkəmizin səfiri Məmməd Talıbov tərəfindən Kolumbiya Milli Kitabxanasına hədiyyə olunduğu, o cümlədən dünyaca məşhur kolumbiyalı rəssam və heykəltaraş Fernando Boteronun əsərlərinin bu il Bakıda sərgilənəcəyi barədə məlumat verilir.

Valideynlər uşaqları dinləyirmi, yoxsa yalnız nəzarət edirlər?

"Bu gün bağçalarda və məktəblərdə valideynlər uşaqlarını onlayn sistemlə, kameralar vasitəsilə izləməyi üstün tuturlar". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib. Onun sözlərinə görə, bu nəzarət anlayışı artıq bəzi hallarda xəstəlik səviyyəsinə çatıb: "Valideyn uşağın həyatının hər bir anına nəzarət etmək istəyir. Amma bu, gələcəkdə ciddi psixoloji problemlərə səbəb ola bilər. Uşaq böyüyüb şəxsiyyət kimi formalaşmağa başlayanda, azadlıq istəyəndə, artıq dərk edəndə ki, o nəzarət altında olmaq istəmir, bu zaman həm uşaq, həm də valideyn üçün travmatik vəziyyətlər yarana bilər. Valideyn özünü pis hiss edəcək, tək qalacaq, övladına qarşı aqressiya göstərəcək və övladını özünə borclu hesab edəcək: "Mən səni belə böyütmüşəm" düşüncəsi ilə. Amma gəlin bir az da uşağın baxış bucağından düşünək: Uşaq nə istəyir? Müşahidələr göstərir ki, valideynlər çox vaxt uşağa özlərinin sevdiyi oyuncağı alırlar. Yəni seçim uşağın deyil, valideynin istəyinə əsaslanır. Və yaxud çoxlu şirniyyat alırlar, ya da istənilən istəyə dərhal reaksiya verirlər. Bu isə uşağın ehtiyacını deyil, valideynin öz eqosunu təmin etməkdir. Valideyn özünü "mükəmməl ana/ata" kimi hiss etmək üçün bu cür davranır. Lakin sual olunur: Həqiqətənmi bu uşağa lazımdır? Azadlıq vermək çox gözəl anlayışdır, amma bu azadlığın sərhədi olmalıdır. Həddindən artıq azadlıq və nəzarətsizlik uşağın inkişafına mənfi təsir edə bilər. Həmçinin bu gün ailədə "iki ana" obrazı yaranıb. Atalar da ana rolunu oynayır. Artıq ailədə dominant, fikrini sərt şəkildə ifadə edən ata obrazı demək olar ki, yoxdur. Halbuki ailədə bir tarazlıq olmalıdır: ana həlimliyi, ata isə qərarlılığı və məsuliyyəti təmsil etməlidir. Bu balans pozulduqda, ailə strukturu və uşaq psixologiyasında problemlər yaranır. Bununla yanaşı, bu gün çox vaxt "valideyn övladla dost olmalıdır" ideyası ön plana çəkilir. Avropa dəyərləri ilə yaşamağa çalışırıq, amma bizim mental və genetik kodlarımız fərqlidir. Biz nə qədər çalışsaq da, daxili mahiyyətimizi tam dəyişdirə bilmərik. Dəmir qapı taxta qapı ola bilməz, taxta da dəmirə çevrilə bilməz. Tərkib nədirsə, onunla uyğun yaşamaq lazımdır. Bu baxımdan, bu gün valideyn-övlad münasibətlərini düzgün şəkildə tarazlamaq vacibdir. Həm sərhəd, həm də sevgi ilə qurulan münasibət uşağın sağlam psixoloji və sosial inkişafı üçün əsas şərtdir".

Günel Rəşadqızı

“Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır”

“Bu gün Türkiyə və Azərbaycan xalqlarının bir yumruq kimi həmrəy olması, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.

O bildirib ki, Azərbaycan və Türkiyənin maraqlarının uyğun olması, ən önəmlisi isə hər iki dövlətin vətəndaşlarının böyük hissəsinin eyni etnik qrupa sahib olması, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr iki qardaş ölkənin bir mövqedən çıxış etməyə, bir-birilə sıx əlaqələr qurmağa vadar edir: ”Xüsusilə, çətin anlarda iki qardaş ölkənin bir-birinə dəstək olması hər kəs tərəfindən qəbul olunan bir həqiqətdir.Türkiyədə baş vermiş zəlzələdən sonra dövlətimiz tərəfindən atılan addımlar da bu birlik və həmrəyliyin bariz nümunələrindən biridir. Bildiyimiz kimi, 2023-cü ilin fevralında Türkiyədə baş verən zəlzələ ölkənin cənub-şərqində böyük fəlakətlərə yol açdı. Əsrin faciəsi adlandırılan bu zəlzələnin fəsadlarının aradan qaldırılması zamanı Azərbaycanın Türkiyəyə göstərdiyi yardım qardaşlıq və dostluq münasibətlərinin ən gözəl nümunəsi kimi səciyyələndirilə bilər.

Azərbaycan ilk gündən axtarış-xilasetmə məqsədilə Türkiyəyə xilasetmə mütəxəssisləri göndərdi. Həmin xilasedicilər Kahramanmaraşda və zəlzələdən ziyan görmüş, dağıntılara məruz qalmış ətraf ərazilərdə böyük şücaət, fədakarlıq göstərdilər. Onlar dağıntılar altından 53 nəfəri sağ, 741 nəfərin isə cəsədini çıxardılar. Azərbaycanlı heyətdən 114 nəfər daha sonra Hatay şəhərində də xilasetmə işlərində aktiv iştirak etdi. Kahramanmaraşda yaradılan iki səhra xəstəxanasında 41 həkim və səhiyyə işçisi dayanmadan çalışdılar. Azərbaycan nümayəndə heyətinin tərkibində olan psixoloqlar yerlərdə zəlzələdən zərər çəkənlərə dəstək oldular. Xəstəxanalarda, o cümlədən cərrahiyyə xidməti və laboratoriyada zəlzələdən zərər çəkmiş təxminən 2 500 insana sağlamlıq xidmətləri və psixososial dəstək göstərildi. Azərbaycandan gələn heyət Kahramanmaraş və rayonlarında 10 yerdə çadır şəhərcikləri yaratdılar.

Bu dəstəyin ən mühüm nümunələrindən biri isə Kahramanmaraş vilayətində inşa edilən ”Azərbaycan” məhəlləsi oldu. Bu məhəllənin tikintisi Prezident İlham Əliyevin göstərişi ilə həyata keçirilib və layihə təkcə yaşayış və ticarət obyektləri ilə məhdudlaşmır. Burada, həmçinin məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi, məscid və digər sosial obyektlər də tikilir. Burada inşa edilən məktəbə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı verilib”.

”Tam məsuliyyəti ilə deyə bilərik ki, ”Azərbaycan” məhəlləsinin tikintisi ilə bağlı ölkə başçısının təşəbbüsü bir daha sübut etdi ki, Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq sadəcə sözlərdə deyil, real addımlarda da özünü göstərir. Şübhəsiz ki, bu kimi təşəbbüslər və layihələrin icrası ölkələrimiz arasında dostluğun, əməkdaşlığın gələcək nəsillərə ötürülməsində də olduqca mühüm rol oynayır. Elə ölkə başçısı da ”Azərbaycan” məhəlləsinin açılış mərasimində çıxışı zamanı Azərbaycanın hər zaman Türkiyənin yanında, Türkiyənin də hər zaman Azərbaycanın yanında olduğunu vurğuladı və bu gün Kahramanmaraşda ”Azərbaycan” məhəlləsinin açılışının bizim birliyimizin, dostluğumuzun təzahürü olduğunu qeyd etdi. Türkiyə-Azərbaycan qardaşlığının, birliyinin təkcə bölgəmiz üçün deyil, dünya çapında önəmli faktor olduğunu vurğulayan dövlətimizin başçısı öz çıxışında tarixi Şuşa Bəyannaməsinin də birlik və müttəfiqliyimizin möhkəmləndirilməsində mühüm rol oynadığını diqqətə çatdırdı” - deyə o, əlavə edib.

Söylü Ağazadə

Qərbi Azərbaycan İcması birmənalı dəstəyə görə İƏT üzv dövlətlərinə təşəkkür edib

Qərbi Azərbaycana qayıdış məsələsinə beynəlxalq dəstəyin əldə edilməsi istiqamətində növbəti böyük uğur əldə edilib. Belə ki, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının İstanbul şəhərində keçirilmiş 51-ci sessiyasının yekun bəyannaməsinə Qərbi Azərbaycan məsələsi barədə bənd daxil edilib və sessiyada bu məsələ ilə bağlı ayrıca qətnamə qəbul olunub.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

Qeyd olunub ki, sözügedən sənədlərdə İƏT üzv dövlətləri Ermənistan tərəfindən Qərbi azərbaycanlılara qarşı törədilmiş deportasiya, onların mədəni irsinin dağıdılması və İcmanın qayıdış hüququnun inkar olunmasını qınayır. Üzv dövlətlər Qərbi azərbaycanlıların öz yurdlarına təhlükəsiz şəkildə və ləyaqətlə qayıdışına birmənalı dəstək ifadə edirlər. ”Hazırkı Ermənistan ərazisindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ” adlı qətnamənin qəbulu ilə Qərbi Azərbaycan məsələsi İƏT-in gündəliyində əsas mövzulardan biri kimi təsbit olunub və İƏT icra strukturlarına bu mövzu ilə müntəzəm əsasda məşğul olmaq tapşırığı verilib.

”Azərbaycan rəhbərliyinin təşəbbüsü ilə ötən il İƏT Bancul Zirvə görüşündə Qərbi Azərbaycan mövzusunda qəbul edilmiş qərardan sonra, İƏT Nazirlər Şurasının sözügedən qərarları qəbul etməsi təşkilatın bu məsələdə ardıcıl və prinsipial yanaşma tutduğunu göstərir.

Qərbi Azərbaycan İcması sözügedən qərarların beynəlxalq hüququn və insan hüquqlarının aliliyinin, bölgədə sülh, barışıq və ədalətin bərqərar olunmasına töhfə verəcəyinə inanır. İcma İƏT Nazirlər Şurasının bu qərarlarını ürəkdən alqışlayır və bu qərarların qəbul edilməsinə görə İƏT üzv dövlətlərinə təşəkkür edir”,- deyə açıqlamada vurğulanıb.

MƏTLƏB
Metlebsalahov@mail.ru

İran ”qan itirir”, hiyləgər Paşinyan Ərdoğanla ”dostlaşır”...

Erməni baş nazir İranın "qan itirdiyi", Avropa və Rusiyanın başının qarışdığı bir vaxtda öz hakimiyyətinin təhlükəsizliyi üçün çapalayır

Nikol Paşinyan Ankaraya səfər etdi. Ermənistan baş nazirinin Türkiyəyə səfəri bölgədəki müharibə prosesi, siyasi yerdəyişmələr fonunda baş verir. Nikol Paşinyan dünya siyasətinin ciddi aktorlarından sayılan, bölgə siyasətinin əsas lideri kimi ABŞ, Çin və Rusiya, habelə Avropa İttifaqının özü tərəfindən qəbul edilən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla müzakirə üçün Ankaraya getdi. Əlbəttə, görünən odur ki, erməni baş nazir Türkiyə rəhbəri ilə yaxınlaşma siyasəti aparır. Düzdür, erməni cəmiyyətində baş nazirin bu manevrləri qıcıq yaradır və bu addımlara görə N.Paşinyan tənqidlərin və hücumların hədəfindədir. Xüsusilə revanşist dairələr və kilsə nümayəndələri ənənəvi xəstə təfəkkürə bürünüb erməni baş naziri Ərdoğana əyilməkdə, ”satılmaqda” ittiham edib, ”topa tuturlar”.

Lakin görünən odur ki, hazırkı erməni baş nazir neçə əsrlərdir erməni cəmiyyətində kök atmış stereotiplərdən tam fərqli olaraq real siyasət kursuna üstünlük verir və öz hakimiyyətinin təhlükəsizliyi üçün manevrlər edir. Görünən odur ki, N.Paşinyan İran-İsrail müharibəsinin alovlandığı bir vaxtda, əslində real vəziyyətdən faydalanmaq üçün çalışır.

Buna sübut kimi rəsmi İrəvanın artıq Avropadakı dəstəkçilərindən və başı qarışıq olan Rusiyadan ümidini kəsib Türkiyə ilə əlaqələrə üstünlük verməsini göstərmək olar. Nikol Vavayeviç əsl erməni hiyləgərliyi ilə iş aparır. Bölgədə kim güc sahibidirsə onunla yaxınlaşma və tərəfdaşlıq qurmağa, beynəlxalq dəstək qazanmağa çalışır. Əlbəttə, açıq-aydın görünən odur ki, erməni baş nazir İranın ”qan itirdiyi”, Avropa və Rusiyanın başının qarışdığı bir vaxtda öz hakimiyyətinin təhlükəsizliyi üçün çapalayır N.Paşinyan eyni zamanda Ermənistan daxilindəki potensial düşmənlərini də ”təmizləməklə” məşğuldur.

Artıq neçə gündür erməni əsilli Rusiya vətəndaşı olan milyarder Samvel Karapetyan həbs edilib. Artıq Ermənistan hökuməti ona məxsus ”Ermənistan Elektrik Şəbəkələri” QSC-ni (ENA) milliləşdirməyə hazırlaşır. S.Karapetyan kifayət qədər ciddi fiqurdur və Kremldə qəbul edilən şəxsdir. Əlbəttə, onun bu şəkildə zərərsizləşdirilməsi N.Paşinyanın təkbaşına verə biləcəyi qərar deyil. Çox güman ki, hazırkı erməni hakimiyyətinə düşmən kəsilmiş kilsə ilə sıx münasibətləri olan milyarderin həbsi üçün erməni baş nazir Kremldən razılıq alıb. Moskvanın da belə gərgin situasiyada hansısa milyarderin pul itirməsinə və Ermənistandan qovulmasına görə N.Paşinyana göz ağardacağına inanmıram. Görünür ki, siyasi tullantı olaraq qəbul edilən revanşist Serj Sarkisyan və Robert Koçaryan kimi dostlarından fərqli olaraq, hazırkı vəziyyətdə N.Paşinyan V.Putin üçün Ermənistanda ən işlək və sərfətli tərəfdaş kimi qəbul edilir. Belə olmasaydı erməni baş nazir kilsəyə qarşı bu şəkildə aşağılayıcı hücum etməz, onları zərərsizləşdirmək üçün ciddi addımlara əl ata bilməzdi. Çünki Kilsə Kremlin ”arxa bağçası” sayılır. Bu gün N.Paşinyan tükdən nazik və ölümün qulağının dibində olan siyasət ipi üzərində hərəkət edir. Bu gün Nikol Vavayeviç ənənəvi erməni hiyləgərliyi ilə özünü və hakimiyyətini qorumaq üçün çapalayır. Amma nə vaxta kimi? - onu zamana buraxaq...

Sülh üçün hücum - PARADOKS

ABŞ: Müharibəni bitirmək üçün İranı vurduq

Bazar günü, iyunun 22-nə keçən gecə ABŞ İranın nüvə obyektlərinə kütləvi zərbələr endirib, strateji bombardmançıların bunkerlərini və sualtı qayıqlardan "Tomaqavk" qanadlı raketlərini tam gücü ilə buraxıb. ABŞ prezidenti Donald Tramp artıq "sülh zamanı" olduğunu açıqlayıb, lakin İranın cavab hücumları halında Tehranı "daha ciddi nəticələrlə" hədələyib. ABŞ-ın İranla qarşıdurmada daha da irəli gedəcəyi, rejimin dəyişməsi təhlükəsi ilə üzləşə biləcək Tehranın gələcək addımlarından asılı olacaq. Bu arada İranın xarici işlər naziri Abbas Əraqçi Moskvaya gedib və iyunun 23-də Vladimir Putinlə görüşməyi planlaşdırır.

İranın üç nüvə mərkəzinə birgə zərbəni ABŞ Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri həyata keçirib. Altı B-2 Spirit strateji bombardmançı təyyarəsi 12 GBU-57 bunker busterlərini Fordoda ciddi şəkildə qorunan yeraltı obyektə atıb. Yeddinci belə bombardmançı Natanzdakı obyektə iki bomba atıb. Bu arada Amerika sualtı qayıqları Natanz və İsfahandakı ob-

yektlərə 30 Tomahawk qanadlı raket atıb. ABŞ strateji təyyarəsinin xaricdən İranın Fordodakı əsas nüvə obyektinə uçması havada yanacaq doldurma da daxil olmaqla 37 saat çəkib.

Gizli əməliyyatın təfərrüatları Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Den Keyn tərəfindən həyata keçirildikdən bir gün sonra Pentaqonda jurnalistlərə açıqlanıb. "Cümə və şənbə günü səhər, B-2 bombardmançılarının böyük bir qrupu ABŞ-dan havaya qalxdı. Təəccüb hissi yaratmaq üçün qrupun bir hissəsi diqqəti yayındırmaq üçün qərbə və Sakit Okeana tərəf yönəldi, bunu planlaşdırmada iştirak edən yalnız bir neçə nəfər bilirdi. "Hava zərbələrində yeddi B-2 bombardmançı təyyarəsi iştirak edib", - Dan Keyn deyib.

ABŞ-ın İran İslam Respublikasına qarşı hərbi əməliyyatının nəticələrini ilk olaraq Donald Tramp özü yekunlaşdıraraq, "Truth" sosial şəbəkəsində üç paylaşım edib və eyni zamanda xalqa müraciət edib. "Biz İranın Fordov, Natanz və İsfahandakı üç nüvə obyektinə çox uğurlu hücumumuzu tamamladıq. Bütün təyyarələr indi İranın hava məkanından kənardadır. Bütün bombalar Fordodakı əsas obyektə atılıb. Bütün təyyarələr sağ-salamat evlərinə qayıdırlar. Böyük Amerika döyüşçülərini təbrik edirik. Dünyada bunu edə biləcək heç bir hərbi qüvvə yoxdur!", Tramp yazıb. "Truth Social" səhifəsində ikinci yazısında ABŞ prezidenti xəbərdarlıq edib ki, "İranın Amerika Birləşmiş Ştatlarına qarşı hər hansı cavab zərbəsi daha böyük güclə qarşılanacaq". O, üçüncü yazısında İranın hücumunu "Amerika Birləşmiş Ştatları, İSRAİL və DÜNYA ÜÇÜN TARİXİ AN" adlandırıb. "İRAN İNDİ BU MÜHARİBƏYƏ BİTİRİLMƏYƏ RAZI OLMALIDIR", - ABŞ prezidenti əlavə edib.

Baş verənlərin indi dünyanın bir çox siyasətçilərinin, diplomatlarının və ekspertlərinin qorxduğu eskalasiyaya və böyük müharibəyə səbəb olmamalı, əksinə, İsrail və İran arasında münaqişənin sülh yolu ilə sona çatması fikrini Donald Tramp xalqa müraciətində təkrarlayıb. "Yaxın Şərqin zorakılığı olan İran indi sülh bağlamalıdır. Əgər bunu etməsələr, gələcək hücumlar daha böyük və həyata keçirilməsi daha asan olacaq", - Ağ Evin rəhbəri xəbərdarlıq edib.

NBC telekanalının məlumatına görə, İrana qarşı əməliyyatla bağlı yekun qərarın verildiyi Ağ Evin Dairəvi otağında keçirilən görüşdə ABŞ prezidentinin komandasının əsas üzvləri iştirak ediblər. Həmin anda Trampı vitse-prezident J.D.Vens, müdafiə naziri Pit Heqset, Milli Kəşfiyyatın direktoru Tulsi Qabbard, Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Con Ratkliff, dövlət katibi və milli təhlükəsizlik üzrə müşaviri Marko Rubio, eləcə də Yaxın Şərq üzrə xüsusi elçi Stiv Vitkoff, Ağ Evin mətbuat katibi Le Vitkof və Ağ Evin mətbuat katibi müşayiət edib. Bundan əvvəl Amerika mediası öz mənbələrinə istinadla, Ağ Ev komandasında İranın nüvə probleminin güc yolu ilə həllinin tərəfdarları ilə diplomatiya tərəfdarları arasında bölündüyü iddia edilən parçalanma barədə məlumat yayıb. Sonuncular arasında vitse-prezident Vens, xüsusi elçi Whitkoff və Milli Kəşfiyyat Direktoru Qabbard var idi və onlar İranın nüvə silahı əldə etməyə hazır olduğuna dair heç bir əlamət olmadığını bəyan ediblər. Xüsusilə də bu mövqe Tulsi Qabbardın bu məsələ ilə bağlı fikirlərinə əhəmiyyət vermədiyini bildirən Ağ Ev rəhbəri Trampın ictimai narazılığına səbəb olub.

İranın hücuma məruz qalan nüvə obyektləri haqqında nə məlumdur?

The Wall Street Journal-ın bir gün əvvəl yazdığı kimi, hücumdan əvvəl dövlət katibi Rubio hələ də avropalı müttəfiqlərinə Vaşinqtonun Britaniya, İtaliya, Kipr, Fransa və İsveç diplomatları ilə danışıqlar apararaq hələ də diplomatik həllə ümid etdiyini deyirdi. Ağ Evdən gələn ziddiyyətli siqnallara və İslam Respublikasının nüvə obyektlərinə zərbələr ərəfəsində İran məsələsi ilə bağlı fikir ayrılıqları ilə bağlı çoxsaylı sızıntılara baxmayaraq, Ağ Evdəki "şahinlər" və "göyərçinlər" birləşmiş komanda kimi görünürdü.

Amerikanın İranın nüvə obyektlərinə endirdiyi zərbələr emosiyalarını cilovlaya bilməyən İsrailin baş naziri Binyamin Netanyahuya təsvirolunmaz sevinc bəxş edib. Netanyahu son günlərdə xalqa ikinci müraciətində "Əməliyyat başa çatdıqdan dərhal sonra prezident Tramp mənə zəng etdi. Çox isti, çox təsirli söhbət oldu. Prezident Tramp azad dünyanın güclü lideridir. O, İsrailin böyük dostu, heç kəsə bənzəməyən dostdur" deyib. "Xatırlayırsız ki,

əməliyyatın əvvəlindən İranın nüvə obyektlərinin bu və ya digər şəkildə məhv ediləcəyinə dair sizə söz vermişdim. Bu vəd yerinə yetirildi. Mən və Prezident Tramp arasında tam koordinasiya və İsrail Müdafiə Qüvvələri ilə Amerika ordusu arasında tam əməliyyat koordinasiyası ilə Birləşmiş Ştatlar İranın üç nüvə obyektinə - Fordo, Natanz və İsfahana hücum etdi. O, həmçinin iyunun 13-də Təl-Əvivi "Şir kimi xalq" əməliyyatına başlamağa məcbur edən İranın nüvə proqramının yəhudi dövlətinin və bütün dünyanın mövcudluğu üçün təhdid olması ilə bağlı uzun müddət davam edən tezisini təkrarlayıb.

Tehranın İsfahan, Natanz və Fordo obyektlərinə endirilən zərbələrə ilk müfəssəl cavabını Amerikanın hücumundan xəbər tutan İslam Əməkdaşlıq Təşkilatının nazirlər toplantısında iştirak etdiyi İstanbulda olan İranın xarici işlər naziri Abbas Əraqçi verib. "Biz başa düşmürük ki, niyə İrana hücum edilməlidir. İran niyə haqsız ittihama görə bədəl ödəməlidir? Biz 20 ildir sübut etməyə çalışırıq ki, proqramımız dinc xarakter daşıyır. Razılaşdıq, bütün dünya bizi təbrik etdi. ABŞ geri çəkildi. Yeni danışıqlar apardıq, sonra bizə hücum etmək qərarına gəldilər. Əvvəl İsraildən istifadə etdilər, indi də bizə hücum edirlər. ABŞ prezidenti regionumuzda sonsuz baha başa gələn müharibələrə son qoymaq platformasında seçilib. O, diplomatiyaya sadiqliyimizi pozaraq təkcə İrana xəyanət etmədi, həm də müharibəyə başlamaq istəyən cinayətkarların təsiri altına düşərək öz seçicilərini aldatdı", - İranın xarici işlər naziri davam etdi.

Bununla belə, o, Tehranın cavabının nə ola biləcəyini, o cümlədən strateji Hörmüz boğazının bağlanması ehtimalını dəqiqləşdirməyib, ABŞ-a qarşı təhdidlərdən çəkinib və hətta etiraf edib ki, danışıqlara hazırlıqdan söhbət getməsə də, "diplomatiyanın qapısı açıq qalmalıdır". Hörmüz boğazının bağlanması təhlükəsinə gəlincə, bazar günü, iyunun 22-də İran parlamentinin üzvləri onun blokadaya alınmasını dəstəkləyiblər, lakin bu məsələ ilə bağlı yekun qərar Ali Milli Təhlükəsizlik Şurası və İranın ruhani lideri Ayətullah Əli Xameneinin ixtiyarındadır.

İran parçalanmır

Rusiya, Çin və bir sıra digər ölkələrin təşəbbüsü ilə İranın nüvə obyektlərinə endirilən zərbələrlə əlaqədar olaraq, BMT Təhlükəsizlik Şurası bazar günü axşam saatlarında fövqəladə iclas keçirib və bundan əvvəl Amerika və İran nümayəndələrinin yeni səsli bəyanatları səsləndirilib. Onların bəyanatları, eləcə də beynəlxalq ictimaiyyətin reaksiyası ABŞ və İsrailin məqsədlərini əldə edilmiş hesab etmək olarmı və İranın nüvə obyektlərinin bombalanmasından sonra eskalasiyanın nə qədər uzağa gedə biləcəyi sualını cavabsız qoyub.

Bazar günü Vaşinqtonda keçirilən mətbuat konfransında ABŞ-ın müdafiə naziri Pit Heqset deyib: "Bizim ilkin qiymətləndirməmizə görə, bütün dəqiqlikli döyüş sursatları istədiyimiz yerə dəyib və istənilən effekti əldə etdik. Xüsusilə də əsas hədəf olan Fordoda imkanları məhv etmək effektinə nail olduğumuza inanırıq". Onun sözlərinə görə, zərbələrdən sonra ABŞ administrasiyası bir çox kanallar vasitəsilə İran tərəfinə danışıqlar masasına oturmağa çağırışlarla siqnallar göndərir. "Onlar Amerikanın mövqeyinin nə olduğunu, ABŞ-ın sülh üçün hansı addımlar ata biləcəyini dəqiq başa düşürlər. Biz ümid edirik ki, onlar bunu edəcəklər", - Pentaqonun rəhbəri qeyd edib.

Vitse-prezident J.D.Vens də ABC News-a müsahibəsində barışdırıcı bəyanat verib. "Birləşmiş Ştatlar uzanan münaqişədə maraqlı deyil. Bu, bütün Yaxın Şərqdə tamamilə fəlakətli hərbi münaqişəyə səbəb olacaq", - cənab Vens etiraf edib. Zərbələri qiymətləndirərək, o, əməliyyatın Tehranın nüvə proqramının inkişafını "əhəmiyyətli dərəcədə gecikdirdiyi" fikrini ifadə edib, lakin qeyd edib ki, ABŞ İranın bütün nüvə infrastruktur obyektlərinin tamamilə məhv edilməsini 100 faiz əminliklə təsdiq edə bilməz.

Bunun fonunda Tehran artıq İranın nüvə proqramlarının inkişafının davam edəcəyini bəyan edib. İranın Atom Enerjisi Təşkilatının sözçüsü Behruz Kamalvəndi Tasnim agentliyinə deyib: "Onlar bilməlidirlər ki, bu sənayenin ölkəmizdə öldürülməsi mümkün olmayan kökləri var. "Əlbəttə, biz zərər çəkmişik, lakin bu, nüvə sənayesinin bununla ilk dəfə qarşılaşması deyil. İmkan və potensialı nəzərə alsaq, təbii ki, bu sənaye mövcud olmağa davam etməlidir, onun inkişafı dayandırılmayacaq", - İran rəsmisi əlavə edib.

Tehranın arqumentləri gözlənilmədən Amerika müttəfiqləri ilə qiyabi polemikaya girən Fransa müdafiə naziri Sebastien Lecornu tərəfindən dəstəklənib. "Biz tez-tez bir neçə zərbənin İranın nüvə proqramını tez bir zamanda məhv edəcəyi barədə sadə fikri eşidirik. Amma bu proqram çoxdan mövcuddur və bir neçə yeraltı obyektdə yerləşir. İran sistemi həmişə uyğunlaşıb. Alimləri zərərsizləşdirmək yalnız proqramı gecikdirəcək, amma onu dayandırmayacaq. Möcüzə bombasının, hətta Amerikanın GBU-57-nin belə, problemi dərindən həll edə biləcəyini düşünmək, problemi həll etmək gücündədir". Lekornu "Le Parisien" nəşrinə müsahibəsində deyib.

İsrail prezidenti İsaak Hersoq da bazar günü ABŞ və İsrailin İran hədəflərinə zərbələrinin İranın nüvə proqramını tamamilə aradan qaldıra bildiyinə şübhə etdiyini bildirib. "Mən onun məhv edildiyini deyə bilmərəm, lakin deyə bilərəm ki, həm İsrailin hücumları, həm də Amerikanın hücumu nəticəsində ona çox ağır zərbə vurulub", - Hersoq CNN telekanalına müsahibəsində deyib.

Beləliklə, ABŞ İranla münaqişəni tez bir zamanda aradan qaldırmağa çalışsa da, Tehran Amerika əməliyyatının məqsədlərinə nail olunmadığını iddia edir. Bunun fonunda İranın xarici işlər naziri Abbas Əraqçi Moskvaya getdiyini açıqlayıb. "Rusiya İranın dostudur və bizim strateji tərəfdaşlığımız var. Biz həmişə bir-birimizlə məsləhətləşirik və mövqelərimizi əlaqələndiririk", - İran diplomatiyasının rəhbəri qeyd edib.

Dünya mediasının reaksiyası

ABŞ Hərbi Hava Qüvvələrinin İrandakı nüvə obyektlərini bombalaması beynəlxalq mətbuatda dərhal reaksiyaya səbəb olub. Müşahidəçilər hücumun mümkün nəticələrini qiymətləndirərək, bunun Yaxın Şərqdə onsuz da qeyri-sabit olan vəziyyəti nə dərəcədə pisləşdirəcəyini və Donald Trampın qərarının ABŞ-a necə təsir edəcəyini soruşurlar.

The Wall Street Journal (Nyu York, ABŞ)

Prezident Trampın şənbə günü İranın üç ən mühüm nüvə obyektinə zərbə endirmək qərarı dünyanı ciddi nüvə təhlükəsindən xilas etməyə kömək etdi və Amerikanın mühafizəsini bərpa etmək istiqamətində mühüm addım oldu. Qərar həm də region ölkələrinin fürsətdən istifadə edəcəyi təqdirdə daha dinc Yaxın Şərq imkanını təklif edir. "Tramp həmişə geri çəkilir" söhbəti indi səngiyəcək. Lakin daha əhəmiyyətli yenidən qiymətləndirmə ABŞ-ın xarici siyasəti ilə bağlıdır. Solda, daha yaxınlarda isə sağda olan Obama tərəfdarları dünyanın İran zorakılığına boyun əyməli olduğunu bildiriblər. Ümid edə biləcəyimiz ən yaxşı şey İrana milyardlarla rüşvət verəcək və ona bombanın yolunu açacaq sarsıntılı bir razılaşma idi. Onlar səhv etdilər.

Financial Times (London, Böyük Britaniya)

Trampın əsas iddiası ondan ibarətdir ki, İran və onun Yaxın Şərqdəki müvəkkilləri o qədər zəifləyiblər ki, ABŞ prezidenti onun müdaxiləsini məhdud və uğurlu kimi göstərə bilər. O, həmçinin mərc edir ki, inəkli Tehran tezliklə vəziyyəti sakitləşdirməyə çalışacaq və qisas almayacaq. Əgər Tramp haqlıdırsa, o, bir neçə əvvəlki prezidentin hədəfi olan ABŞ-ın xarici siyasət məqsədinə - İranın nüvə təhlükəsini aradan qaldırmağa - nail olacaq və bunu nisbətən az xərclə edəcək. Lakin bu addım Yaxın Şərqi daha da qızışdırmaq üçün böyük risk daşıyır. Bu, ABŞ və İsrailin təhlükəsizliyini riskə atır və Amerikanı yeni qlobal münaqişələrə sürükləməyəcəyinə söz vermiş prezidentə əks nəticə verə bilər.



Tehran Times (Tehran, İran İslam Respublikası)

Amerikada tənəzzül ABŞ-ın İsrail və İran arasındakı müharibəyə müdaxiləsinin növbəti dərhal nəticəsi olacaq. Bundan əlavə, Pentaqonun komandanlığı altında bölgədə təxminən 50 min ABŞ əsgəri yerləşdirilib. ABŞ İraq, Bəhreyn, Küveyt, Qətər və BƏƏ də daxil olmaqla Qərbi Asiyadakı 19 bazasına milyardlarla dollar sərmayə qoyub. İraq və Suriya müqavimət qüvvələrinin Qəzzada fələstinlilərlə həmrəy olaraq 2023 və 2024-cü illərdə ABŞ bazalarına uğurlu zərbələr endirməsi göstərdi ki, təhlükəsizlik üçün əhəmiyyətli maliyyə sərmayələrinə baxmayaraq, bu bazalar zərər və dağıntılara qarşı həssas olaraq qalır. Vaşinqtonun müharibədə birbaşa iştirakı İranı bu addımı atmağa və Hörmüz boğazını bağlamağa sövq edə bilər.

Jerusalem Post (Yerusəlim, İsrail)

Missiya Tamamlandı. Bu, İsrailin indiki şüarı ola bilər. Qüds Natanz və İsfahandakı nüvə obyektlərinin dağıdılmasına nail olub. ABŞ öz meqabunker bombalarını Fordo nüvə obyektinə atdı. Onlarla başqa nüvə obyekti məhv edilib. Onun ən yaxşı nüvə alimlərinin çoxu öldürülüb. Onun ballistik raket buraxılış qurğularının 50%-dən çoxu məhv edilib. Onun yüksək səviyyəli hərbi və kəşfiyyat rəsmilərinin 75%-i öldürülüb. İsrail İranın lideri Ayətullah Əli Xamneyini və bir neçə başqa lideri öldürmüş ola bilər, lakin yəhudi dövlətinin rejimin milyonlarla tərəfdarının olduğu 90 milyon əhalisi olan ölkədə rejim dəyişikliyinə nail olub-olmayacağı bəlli deyil.

Birləşmiş Ştatlar bunu edə bilər. Lakin Tramp bu mübarizədə olmadığını açıq şəkildə bildirdi. Bəs başqa nəyə nail olmaq olar? İran nüvə proqramını yenidən qurmağa çalışarsa, İsrail gələcəkdə yenidən hücum etməli ola bilər. Ancaq bu, altı ay, iki il və ya daha çox çəkə bilər. Bir anda İsrail Hizbullaha hücumu dayandırdı. İndi o məqamın harada olduğunu anlamağın vaxtıdır, bundan sonra İrana qarşı qazanılan qazanclar azalmağa başlayır.

V.VƏLİYEV

AXCP-də qatı diktatura hökm sürür

Son günlər dağıdıcı müxalifətin üzləri qara olmuş məxluqları Azərbaycanın əldə etdiyi möhtəşəm uğurlara qarşı geniş qarayaxma kampaniyası təşkil edirlər. Hər gün eyni qərəzli sayıqlama, hər gün eyni şər və böhtanlar. Bu kimi fəaliyyət dağıdıcı müxalifətin başlıca hədəfi və fəaliyyətidir. Sanki onlar bunun üçün doğulublar və buna görə siyasətə gəliblər. Usanmaq, yorulmaq bilmirlər. Müasir dövrün yenilikləri, xüsusilə də internet resurslarının imkanları onların daha geniş şəkildə əlqol açmalarına şərait yaradıb. Hər gün səhərdən axşama qədər sosial şəbəkələrdə veyillənir və xalqını sevən, dövlətinə bağlı olan insanlar haqqında böhtanlar paylaşırlar. Heç biri də nə yaşından, nə başından utanmırlar. Necə deyərlər, hamısı bir bezin qırağıdılar. Yəni "Əlisi dəli, Vəlisi dəli, qırılmışın hamısı dəli". Əli Kərimli trolluq edib, milli varlığımıza şər atırsa, müavinləri və kollegial orqanların üzvləri də eyni tezisi təkrarlayırlar. Bunun üçün AXCP-də vatçap qrupu da yaradılıb. Əli Kərimli qrupda kimi təhqir etmək, söymək, ittihamlar səsləndirmək lazım olduğunu yazırsa, dərhal qrup üzvləri hərəkətə keçib tapşırığı yerinə yetirməlidirlər. Əks halda həmin qrup üzvü partiyadan xaric edilməsi təhlükəsi ilə üzləşə bilər. Bu baxımdan cəbhəçilər azad şəkildə fikirlərini ifadə etməkdən çəkinirlər. Ehtiyat edirlər ki, tapşırıqları icra etməsələr partiyadan qovula bilərlər. Belə bir durumla AXCP-nin MNTK sədri Aydın Əliyev üzləşib. Biçarə uzun müddətdir ki, Ə.Kərimlinin qanunsuz şəkildə partiyadan xaric edilməsinə qarşı mücadilə aparsa da, hələ ki, istəyinə nail ola bilməyib. Daha doğrusu, məhkəmə qaydasında partiya üzvlüyünə bərpa olunmağa nail olsa da, Ə.Kərimli məhkəmə qərarını icra etmir. Bu da daxildə böyük söz-söhbətlərə səbəb olub. Əksər cəbhəçilər bir-birləri ilə Ə.Kərimlini daxili demoratiyanı pozmaqda, hüququn aliliyinə qarşı çıxmada ittiham edirlər.

Ə.Kərimli öz qara-qura işlərini sosial şəbəkələr üzərindən davam etdirir. Fakt ondan ibarətdir ki, sosial şəbəkələrdə Əli Kərimli baş trol olaraq çıxış etsə də, onun tapşırıqlarına İlham Hüseyn, Məmməd İbrahim, Fuad Qəhrəmanlı və Emil Səlimov nəzarət edirlər. Hədəfə alınan şəxs və ya şəxslər haqqında məlumatlar toplanılır və iyrənc üsullardan istifadə etməklə onu tirajlayırlar. Bu zaman öz əqidə dostları da hədəfə alına bilər. Dəfələrlə Müsavat başqanı Arif Hacılının, Real partiyasının sədri İlqar Məmmədovun və digərlərinin Ə.Kərimlinin trollarının basqısına məruz qalmalarını göstərmək olar. Bir qədər əvvəl Milli Şuranın keçmiş üzvü Ənnağı Hacıbəyli özünün "Facebook" səhifəsində paylaşımında qeyd etmişdir ki, son günlər AXCP üzvləri tərəfindən təhqir olunur. Ə.Hacıbəyli məsələni aydınlaşdırmaq üçün Ə.Kərimli ilə əlaqə saxlamağa cəhd etsə də, F.Qəhrəmanlının müdaxiləsi ilə əlaqə baş tutmamışdı. Ə.Hacıbəylinin qənaətincə, ona qarşı yönələn təhqirlərin hazırlanmasında və paylaşılmasında F.Qəhrəmanlı xüsusi fəallıq göstərib. Ümumiyyətlə görünən ondan ibarətdir ki, F.Qəhrəmanlı diribaş trol olaraq Ə.Kərimlinin yanında müəyyən hörmətə malikdir. Yəni sözü, təklifləri AXCP-də keçərlidir. Düzdür, ailə biabırçılığından sonra Ə.Kərimli F.Qəhrəmanlını müavinlikdən uzaqlaşdırmışdı, lakin sonradan ondan yaxşı trol tapmayacağını anladığından yenidən onu trollarının sırasına qatdı. Hətta müavinlik statusunu bərpa etməklə, şəxsli istək və tapşırıqlarını yerinə yetirən trol görəvinə layiq gördü.

AXCP-də müstəqil fikir söyləyənlər partiyadan xaric olunur

Daxili narazılıqları nəzərə almayan

AXCP-də yeni qarşıdurma yaranır

F.Qəhrəmanlının düzlükdən, ədalətdən danışması da Ə.Kərimlini və vatçap qrupundakı trolları barmağına dolamaqdan başqa bir şey deyil. Çünki bu məxluqun AXCP-nin siyasi, ideoloji dayaqlarına xəyanət etdiyini əksər cəbhəçilər yaxşı bilir. Xüsusilə də, telefon danışığı zamanı Ə.Kərimlinin başını yeyib, AXCP-dəki durumu öz xeyrinə dəyişməyə hazırlaşması barədə üzə çıxan məlumatlar onun, əslində liderinə xəyanət etdiyinin göstəricisi sayıla bilər. Düzdür, burada təəccüblü bir şey yoxdur. Necə deyərlər, "nə tökərsən aşına o da çıxar qaşığına". Zamanında Ə.Kərimli öz lideri Əbülfəz Elçibəyə necə xəyanətlər etmişdirsə, indi də F.Qəhramanlı və digərləri tərəfindən eyni aqibəti yaşamaqdadır. Həmin telefon danışığı zamanı F.Qəhrəmanlı Ə.Kərimlini zərərsizləşdirmək üçün geniş plan hazırladığını və yaxın vaxtlarda həmin planı reallaşdıracağını bildirir. "Əgər YAP iqtidarı saxlaya bilmirsə, Əli Kərimli və dəstəsi də hakimiyyətə gələ bilmirsə, onlar optimal variant olaraq mənim namizədliyimin üzərində dayanacaqlar. Çünki hər iki tərəf bilir ki, birinin hakimiyyətdə qalması və ya o birinin hakimiyyətə gəlməsi digəri üçün faciədir. Bu səbəbdən onlar məcbur qalıb, mənim namizədliyimi qəbul edəcəklər. Çünki mən həm iqtidara, həm də AXCP-yə işləyirəm", - deyən Fuad Qəhrəmanlı qeyd edir ki, o, Ərdoğanın siyasi texnologiyasından istifadə edəcək: "Ərdoğan Nəcməddin Ərbakanı aldatdığı kimi, mən də Əli Kərimlini aldadacam".Uzun zamandır hakimiyyətə işlədiyini deyən F.Qəhrəmanlı daha sonra ərz edir ki, təkcə Əli Kərimlini deyil, həm də işlədiyi qüvvələri aldadır: "Siyasətlə siyasətçilər məşğul olmalıdır, qazanan hər zaman bacaranlar olur. Yekunda mən iqtidarı 7 il müddətinə götürməyi bacaracağam".

Bütün bu kimi faktlar təsdiq edir ki, F.Qəhrəmanlı öz məsləyinə və əqidəsinə xəyanət etməyə hazır olan məxluqdur. Əgər siyasi stuasiya yetişsə F.Qəhrəmanlı dərhal Ə.Kərimlini gərəksiz məxluqa çevrilən Milli Şuranın sədri Cəmil Həsənlinin gününə salar. O gün isə mütləq yetişəcək. Lakin sual yaradan məqam ondan ibarətdir ki, tülküdən də hiyləgər olan Ə.Kərimli F.Qəhrəmanlının toruna düşəcəkmi? Təbii ki, onu zaman göstərəcək. Ancaq indidən bir fikri vurğulamaq lazımdır ki, ötən dəfə olduğu kimi yaxın vaxtlarda Ə.Kərimli F.Qəhrəmanlını da dolaşdırıb, arxivlik edəcək. Çünki F.Qəhrəmanlı son günlər onun əlinə-ayağına dolaşır. Tapşırıqlarını könülsüz yerinə yetirir.

İLHAM ƏLİYEV

"Savaşın qısa müddətdə sona çatmasına ciddi ehtiyac var"

"İsrail-İran münaqişəsi bölgədə gərginliyi artırır və bu savaşın qısa müddətdə sona çatmasına ciddi ehtiyac var". Bu sözləri SİA-ya açıqlamasında politoloq Oqtay Qasımov deyib. O bildirib ki, artıq bir çox beynəlxalq güc mərkəzləri tərəfindən də gərginliyin azaldılması üçün diplomatik tonların sərtləşdiyi müşahidə olunur: "Dünən BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr də bu istiqamətdə atılan addımların bir hissəsi kimi dəyərləndirilə bilər. Şübhəsiz ki, İranın müttəfiqlərinin bu prosesdə rolu mühümdür. Məhz bu səbəbdən İranın xarici işlər naziri bu gün Rusiyaya səfər edib. Bu səfər zamanı Rusiyanın münaqişəyə dair mövqeyi və mümkün diplomatik istiqamətləri müəyyən olunacaq. Eyni zamanda, ehtimal edilir ki, yaxın günlərdə İran və ABŞ arasında dolayı və ya birbaşa diplomatik təmaslar baş tuta bilər. Bu da vəziyyətin gələcək inkişafına ciddi təsir göstərə bilər. Qlobal güclərin masaya əyləşməsi bölgədə sabitliyə doğru bir ümid yaradır. Yəqin ki, gələcək danışıqlarda tərəfləri qane edəcək ortaq təmas nöqtələrinin və maraqların təmin olunduğu razılaşmalar əldə oluna bilər.

Bu razılaşmalar nədən ibarət ola bilər?

İlk növbədə, İranın nüvə proqramının müəyyən səviyyədə və ciddi beynəlxalq nəzarət altında qalması ilə bağlı razılıq mümkündür. Bu, həm regional, həm də qlobal təhlükəsizlik baxımından vacib addım sayılır. Doğrudur, hazırkı şəraitdə bu razılaşmanın əldə olunması çətin görünür, lakin qarşılıqlı kompromislərlə irəliləyişə nail olmaq mümkündür. Bu kompromislərdən biri də İranın İsrailə qarşı ritorikasında və siyasətində ciddi dəyişikliklər etməsi ola bilər. İsrailin "məhv edilməsi" kimi qəbul olunmaz və təhlükəli ritorikadan imtina olunması bölgədə sabitliyə xidmət edən addımlardan biri ola bilər. Artıq zaman yetişib ki, bu cür radikal yanaşmalar aradan qaldırılsın. Çünki bu ritorika və siyasət bölgədə gərginliyin əsas səbəblərindən biridir. Əgər tərəflər reallığı və beynəlxalq maraqları nəzərə alaraq ortaq bir masa ətrafında toplaşarlarsa, münaqişənin siyasi həlli üçün ümidlər daha da artar".

Söylü Ağazadə

Xammal ölkəsindən sənaye ölkəsinə necə keçə bilərik?

Elçin Bayramlı

Azərbaycanda iqtisadiyyatın diversifikasiya edilməsi məqsədilə qeyri-neft sektorunun inkişafına dəstək məsələsi dövlət başçısı və hökumət tərəfindən əsas prioritet elan edilib. Bu məqsədlə bir sıra sahələrə dövlətin maliyyə dəstəyinin verilməsi üçün bəzi addımlar atılıb. Kiçik və orta sahibkarlığın inkişafına yardım üçün güzəştli kreditlərin və subsidiyaların verilməsi təşkil olunub, müxtəlif güzəştlər edilib. Lakin buna baxmayaraq, hələlik tarazlı iqtisadiyyata nail olunmayıb. Bəs səbəblər nədədir, bunu necə etmək mümkündür? Bu yazıda bu suallara aydınlıq gətirməyə çalışacağıq.

Azərbaycanda iqtisadiyyatın və ixracatın diversifikasiya olunmasına təsir göstərə biləcək 20-dən artıq qanun qəbul edilib. Bundan başqa, bəzi dövlət proqramları təsdiq olunub, müxtəlif fondlar yaradılıb. Regionların sosial-iqtisadi inkişafi Dövlət Proqramlarının və bu kimi digər proqramların əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının, iqtisadiyyatın diversifikasiyasının, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafın təmin olunması müəyyənləşdirilib.

Bu tədbirlər müəyyən müsbət nəticələr versə də, hələlik ÜDM-də, ixracda və dövlət büdcəsində neft sektorunun böyük üstünlüyünün azaldılmasına, başqa sözlə sektorial diversifikasiyaya nail olunmayıb. Ümumilikdə, ÜDM-in 30 faizindən, büdcənin 50 faizindən, ixracın 90 faizdən çoxu neftin bazasında formalaşır.

Regional diversifikasiyaya da hələlik nail olmaq mümkün olmayıb. Belə ki, ölkə ərazisinin təxminən 2,5 faizini təşkil edən Bakı-Abşeronda ÜDM-in ən azı 70 faizi formalaşır.

Deməli, regional və sektorial diversifikasiya son dərəcə vacibdir. Bunun üçün perspektivli qeyri-neft sektorlarına böyük stavka edilməlidir. İqtisadi diversifikasiyada qeyri-neft sektorlarının düzgün seçilməsi vacibdir. Bəs klaster yanaşma ilə prioritet götürüləcək qeyri-neft sahələri hansılar ola bilər və onların hansı perspektivləri var?

Prioritet seçilən sahə digər sektorların da inkişafı üçün lokomotiv rolunu oynamalıdır, onların da məhsulları üçün yeni tələb formalaşdırmalı və digər sektorların hazır məhsullarını istehlak etməlidir. Dünya üzrə o sektorlar yüksək "lokomotiv effekti"nə malik sahələr hesab edilir ki, onlar istehsal prosesində hər bir son məhsulun dəyərinin 50%-i qədər digər sektorların hazır məhsullarını istehlak edir.

Bundan başqa, seçilən sahənin əməktutumlu olması da vacib şərtdir. Burada söhbət birbaşa olaraq seçilən sektorda yaranacaq iş yerlərinin sayından, digər sektorlara pozitiv təsir nəticəsində onlarda yaranacaq iş yerlərindən və nəhayət, yüksək əməkhaqqının formalaşdıracağı "gəlir effekti" ilə yaranan lokal xidmətlərdən gedir.

Daha bir əhəmiyyətli məqam seçilən sahənin böyük ixrac potensialı ilə bağlıdır. Ölkənin digər bütün şərtlərlə yanaşı, müqayisəli üstünlüyə malik olduğu sahələr üzrə yüksək ixrac potensialına sahib ola biləcəyi güman edilir. Bu zaman konkret məhsulun ölkənin ümumi ixracındakı payının qlobal ixracdakı payına nisbəti də bir indikator kimi nəzərə alınmalıdır. Nəhayət, seçilən sahənin idxalı əvəzetmə potensialı nəzərə alınmalıdır.

Bəs iqtisadi şaxələnməyə hansı faktorlar mane ola bilər? Qeyri-effektiv idarəçilik, strateji yanaşmanın olmaması, qeyri-neft sektoruna lazımi həcmdə investisiyaların yönəldilməməsi, email sənayesinin formalaşmasına əhəmiyyət verilməsi, innovativ texnologilardan istifadə edilməməsi, kiçik və orta biznesə bürokratik əngəllər və s. faktorlar prosesə mane ola bilər.

İqtisadi şaxələnmə proqramı olduqca əhəmiyyətlidir. Hökumət strateji konsepsiya bu istiqamətdə konkret proqramlar həyata keçirsə, həm sektorial, həm də regional diversifikasiyaya nail ola bilər və qısa zamanda getdikcə azalmaqda olan neft sektorundan asılılığı minimuma endirə, yaxın və orta müddətli dövrdə ölkənin tarazlı və davamlı inkişafını təmin edə bilər. Nəticədə Azərbaycan xammal istehsalçısı və ixracatçısı statusundan sənaye ölkəsi statusuna keçə bilər və ölkəmiz bir və ya iki iqtisadi sahədən asılı olmaz, geniş sektorlarda müasir emal sənayesinə malik olmaqla tarazlı inkişafınə təmin edə bilər.

“Dəmir İpək Yolu” ilə: şərqdən qərbə, qərbdən şərqə...

“...Çoğrafiyada hər şey Orinviçdən ölçüldüyü kimi, bu yerlərin bütün məsafələri dəmir yolu ilə müəyyən edilir. Dəmir yolu Naxçıvan Muxtar Respublikası üçün hər şeydir. İqtisadiyyatından tutmuş siyasi, sosial və mənəvi həyatınadək hamısı onun ahəngdar işləməsindən asılıdır. Dəmir yolu respublikanın həyat yoludur. Bu mənada dəmir yolu nəyin hesabına olur-olsun işləməli, qatarlar gecə-gündüz şərqdən qərbə, qərbdən şərqə getməlidir. Kimin kimdə acığı, hayıfı varsa, qisas almaq istəyirsə, qoy başqa yol seçsin, muxtar respublikanın, onun 300 minlik əhalisinin həyat yoluna toxunmasın. Əks təqdirdə daha böyük bəlalar, daha dəhşətli faciələr nəsibimiz olar”.

Bu sətirlər Naxçıvana ezamiyyə olunan ”Kommunist” qəzetinin müxbiri Piri Məmmədovun ”Şərq qapısı” qəzetinin 20 fevral 1990-cı il sayında dərc edilən ”Həyat yolu: bu yerlərdə qatarlar nə şərqdən qərbə gedir, nə də qərbdən şərqə...” sərlövhəli yazısındandır.

Yazı o vaxt yazılmışdı ki, ermənilər artıq bir il əvvəldən başlayaraq Bakıdan Naxçıvana gedən qatarlara təcavüz edir, maşinistləri döyür, qatarları atəşə tutur, tunelləri partladır,

bu səbəblərdən həftələrlə dəmiryolu işləmirdi. Yüz min tonlarla xalq təsərrüfatı yükləri yollarda günlərlə, həftələrlə nəzarətsiz qaldığı və mallar xarab olduğu üçün vaqonlar təraş edilirdi. Və bir gün düşmən dəmir yolunu tamamilə kəsdi, regionun polad magistralları iflic oldu, muxtar respublikanın şah damarı fəaiyyətdən qaldı. Bu hal nəinki ölkənin iqtisadi həyatını, bütün Zaqafqaziyanı diksindirdi.

Muxtar respublikanın iqtisadi həyatı çökmüşdü. Yanacaq çatmaması üzündən avtomobil nəqliyyatı pis işləyir, material qıtlığından inşaatçılar boş dayanır, sənaye müəssisələrinin əksəriyyəti məhsul istehsal etmirdi. Mağazaların vitrinləri bomboş idi, ərzaq tükənmişdi. Dəyən iqtisadi ziyanı hesablamaq mümkün deyildi, mənəvi ziyan isə...

Dəmiryolunun bir regionun həyatındakı əhəmiyyətinin mənəvi tərəfini 1991-cu ilin noyabr ayında Bakı Dövlət Universitetinin tələbəsi kimi 670 nömrəli Bakı-Noraşen (Şərur) qatarının sərnişini olarkən gördüm: Bakıdan Naxçıvana gedən qatarın Mehri stansiyasında ermənilər tərəfindən qarşısının kəsilməsi nəticəsində ölümlə üz-üzə qalan, atəşə tutulan, ciliklənən pəncərələr kimi ümidləri yerə səpələnən yüzlərlə insanın tələşında, düz günyarım bu stansiyada saxlanan qatarda körpələrin hava, su, yemək naləsində, Bakının susmasında, bütün ümidlərin Naxçıvana dikilməsində... Və kömək elə Naxçıvandan-o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan Heydər Əliyev tərəfindən insanların xilası üçün vertolyotların göndərilməsi ilə oldu. Sərnişinlər Mehridən Naxçıvana vertolyotlarla daşındı: öz torpağından özünün olan digər torpağa... Vətəndaşın Vətəni daxilində gediş-gəliş yolunun olmaması məsələnin mənəvi tərəfinin nədən ibarət olduğundan söhbət açır.

Artıq 35 ildir ki, o qatarların gecənin qaranlığını yaran, gündüzün səsinə səs verən sədası Zəngəzur çöllərindən- Mehridən eşidilmir. Düz 35 ildir ki, Bakı-Naxçıvan-Bakı qatarları polad magistrallar üzərində susqunca dayanıb: şərqdən qərbə, qərbdən şərqə nəhayətsiz bir susqunluq... Bu xüsusda regionun və insanların hansı əziyyətlərlə qarşılaşdığını təsəvvür etmək çətin deyil. Əslində Naxçıvan və onun sakinləri kimi, bu polad magistralın da ”taleyi” qəribədir...

Bir inqilab, üç müharibə yaşayan, müstəqilliyi görməyən 122 yaşlı dəmir yolu

145 illik tarixi yol keçən və bu dövrü müxtəlif iqtisadi-ictimai formasiyalarda yaşayan Azərbaycan Dəmir Yolları (ADY) ölkənin ən əhəmiyyətli nəqliyyat sistemlərindən biri olaraq həm daxili, həm də beynəlxalq yük və sərnişin daşımalarının həyata keçirilməsində mühüm rol oynayır. 1880-ci ildə fəaliyyətə başlayan Azərbaycan Dəmir Yollarının böyük əhəmiyyətə malik olan qollarından biri də 122 yaşı olan Naxçıvan Dəmir Yollarıdır.

1921-ci ildə Rusiya Sovet Bolşeviklər Partiyası tərəfindən Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsi ilə Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşüb. Muxtar respublikanın məxsus olduğu ölkə ilə quru yol əlaqəsi yalnız Ermənistandan, əslində bizim olan ərazidən keçməklə dəmir yolu olub.

Muxtar respublikada nəqliyyatın ”qan damarı” adlanan və tarixi İpək Yolu üzərində özünəməxsus əhəmiyyəti olan dəmir yolu 1903-cü ildə Şərur, 1905-ci ildə isə Naxçıvan stansiyasının istismara buraxılması ilə inkişafa doğru start götürüb. 1908-ci ildə uzunluğu 189 kilometr olan və Zaqafqaziya dəmir yolunun tərkibində sayılan Uluxanlı-Culfa, daha sonralar Ələt-Mincivan, Naxçıvanı Azərbaycanın paytaxtı ilə birləşdirən 126 kilometr uzunluğunda Mincivan-Culfa dəmiryol xəttinin çəkilişi başa çatdırılıb.

1905-ci ildən çar hökumətinin getdikcə zəifləməsi, inqilabi hərəkatın bütün Rusiyanı bürüməsi, bunun Azərbaycandan təsirsiz ötməməsi, 1914-cü ildə başlanan Birinci Dünya, 1941-ci ildə başlanan İkinci Dünya müharibələrinin hər biri dəmir yolunun işini xeyli çətinləşdirib, ciddi sınaqlara məruz qoyub. Həmin illərdə qatarların hərəkəti xüsusi hərbi qrafikə keçirilib, sərnişin daşınması məhdudlaşdırılıb. Müharibələrarası dövrlərdə dəmir yolunda yeni xətlər istifadəyə verilib, texniki təchizat gücləndirilib, müharibədən sonra isə yük dövriyyəsi və parovozların orta sutkalıq məhsuldarlığı yüksəlməyə başlayıb.

Ümumilikdə Azərbaycan Dəmir Yolları sisteminin möhkəm təməllər üzərində qurulmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olub. Muxtar respublika üzrə artan yük və sərnişin daşınmasına olan tələbatın təmin edilməsi, eləcə də yüksək səviyyədə nəqliyyat xidmətinin təşkil edilməsi məqsədilə 1976-cı ildə dəmir yollarının İmişli stansiyasındakı mərkəzi aparatı Ulu Öndərin şəxsi təşəbbüsü ilə Naxçıvan şəhərinə köçürülərək Naxçıvan hissəsi kimi müstəqil fəaliyyətə başlayıb.

Nəticə etibarilə Sovetlər birliyi dönəmində Naxçıvanın daş duzu, mineral suları, kon-serv və kənd təsərrüfatı, yüngül sənaye və digər ixrac yönümlü məhsulları dəmir yolu vasitəsilə daşınırdı. Təkcə post-sovet ölkələrinə gün ərzində min tona yaxın daş duz məhsulları və bir milyon butulka mineral su göndərilirdi. Hazırda da bu məhsullara, eləcə də Naxçıvanın daş və travertin, həmçinin, sement və digər məhsullarına tələbat böyükdür.

1988-ci ildə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsinin başa çatması nəticəsində yük və sərnişin daşınmasında elektrovoz dartısından istifadə edilib. Elə həmin ildən başlanan Birinci Vətən müharibəsi ilə çox keçmədi ki, dəmir yolu Ermənistan tərəfindən işğal edildi. Və budur, müstəqilliyimizi, üçrəngli bayrağımızı hələ görməyən dəmir yolunun 35 ili... Lakin dövlətimiz daim alternativ yollar axtarışında olub...

Bakı-Tbilisi-Qars, Qars-İğdır-Naxçıvan dəmir yolu- həm də Orta Dəhlizin bir qolu

Dövlətimizin iqtisadi siyasəti və gücü ilə reallaşan, uzunluğu təxminən 850 kilometr olan və 500 kilometrdən çoxu Azərbaycan ərazisindən keçən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu 2017-ci ildə fəaliyyətə başlayıb. Üç ölkəni bir-birinə bağlayan layihəni ”Dəmir İpək yolu” adlandıran Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yolun bir tərəfdən Mərkəzi Asiya və Çini, digər tərəfdən Avropanı Qafqazda qovuşduracağını bildirib.

Bakı-Tbilisi-Qars xətti artıq Şərq-Qərb nəqliyyat dəhlizində Azərbaycanın logistik imkanlarının artırılması ilə nəticələnib və yaxın gələcəkdə bu dəmir yolu ilə sərnişin daşınmasına da start veriləcək.

Söz yox ki, dövlətimizin Bakı-Tbilisi-Qars dəmir yolunun inşasında maraqlarından biri də gələcəkdə bu yolun Naxçıvana qədər uzadılması ilə regionun iqtisadiyyatının dirçəldilməsi və əhaliyə bu yolla paytaxta çıxış imkanı yaratmaq olub. Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi bu fikirləri təsdiqləyir.

223,9 kilometr uzunluğunda və saatda 120-160 kilometr sürət üçün nəzərdə tutulan və Orta Dəhlizin yeni qolu hesab edilən Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin 5 ilə tamamlanması nəzərdə tutulub. Təbii ki, Zəngəzur dəhlizinin tərkib hissəsi olan Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti təkcə Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmək xarakteri daşımır. Dəmir yolu muxtar respublikanın nəqliyyat və iqtisadi potensialını, ixrac imkanlarını artıracaq, eyni zamanda beynəlxalq ticarətə yeni imkanlar yaratmaqla Naxçıvanı mühüm tranzit mərkəzinə çevirəcək, regionu Çinlə, Avropa və Fars körfəzi ölkələri ilə birləşdirəcək ki, bu, həm də ”Dəmir İpək Yolu” marşrutunun genişlənməsi deməkdir.

Dəmir yolu ilə Naxçıvanda istehsal olunan, eləcə də soyuducu vaqonlardan istifadə etməklə muxtar respublikanın ekoloji təmiz və orqanik məhsullarının post-sovet, Avropa və Asiya ölkələrinə rahat və birbaşa çıxışı təmin ediləcək. Tranzit imkanlar həm də Sovet dövründə də xeyli inkişaf etmiş məşhur Ordubad ipəkçiliyinin şöhrətini özünə qaytara, Naxçıvan turizmini xeyli canlandıra bilər. Hazırda muxtar respublikada minə yaxın çeşiddə məhsul istehsal olunsa da, onların bazar problemi var, çünki burada çıxış məhduddur. Yeganə yol...

Zəngəzur Dəhlizi: 40 kilometrlik məsafədə bitən problem

2020-ci ildə 44 günlük İkinci Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfər Naxçıvanın dəmir yolu məsələsini də gündəmə gətirib. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin 2020-ci il 10 noyabr tarixdə imzaladıqları Bəyanata dövlətimizin başçısının təşəbbüsü ilə Azərbaycan respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin bərpası, təhlükəsizliyinə zəmanət məsələsi də salınıb.

Ermənistan üzərinə götürdüyü öhdəlikdən qaçsa da, bu nəqliyyat əlaqəsi Naxçıvanla Zəngilan arasındakı cəmi 40 kilometr məsafə olan Zəngəzur dəhlizi ilə mümkün olacaq. Çünki dövlət başçısının da dediyi kimi, bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş termindir.

Zəngəzur dəhlizinin açılmasının böyük geosiyasi və iqtisadi əhəmiyyəti Azərbaycanın Orta Dəhliz üzərində və Şimal-Cənub marşrutu boyu yerləşməsi deməkdir. Dəhliz Rusiya, Azərbaycan, Türkiyə, İran və ağlı başına gələrsə, Ermənistan da qoşularsa, bölgədə beştərəfli yeni əməkdaşlıq platformasının yaradılması, Türkiyə üzərindən türk dünyasına uzanan yeni inteqrasiya xəttidir.

Zəngəzur dəhlizi həm də daxili iqtisadiyyatda təsir gücünə malik olan rayonlararası dəmir yolları şəbəkəsini genişləndirəcək. Naxçıvanda dəmir yolu işinin təkmilləşdirilməsi uzunmüddətli etibarlı bazarın formalaşmasında, ticarət əlaqələrinin genişləndirilməsində, yük daşımaları ilə bağlı infrastruktur sahələrinin inkişafında faydalı olacaq. Bu uğurlu addımlar həmçinin gələcəkdə bu sahənin qeyri-neft sektorunda xüsusi çəkisinin artması ilə nəticələnəcək.

Cəmi 40 kilometrlik məsafəni aşmaqla, şərqdən qərbə neçə-neçə ölkə bu ortaq iqtisadi dəhliz ilə qədim ”İpək Yolu”nu dəmir magistrallarla daha asan, tez, ucuz qiymətə qət edə, faydalana bilər. Naxçıvan bu layihədə şərqlə qərb arasında ”İpək Yolu”nu daha möhkəm-dəmir əsaslara söykəyən mühüm dayanacaqdır. Ona görə də çox arzulanandır ki, 35 il əvvəl susan qatarlar ”Dəmir İpək Yolu” ilə şərqdən qərbə, qərbdən şərqə gecə-gündüz hərəkət etsin.

Mətanət Məmmədova
Yazı Azərbaycan Dəmir Yolları” QSC və Mətbuat Şurasının ”Azərbaycan Dəmir Yolları - 145 illik inkişaf yolu” mövzusundakı birgə müsabiqəsinə təqdim olunur.

Moskva xəbərdarlıq edir, İrəvan gözləyir

Ermənistanın baş naziri Paşinyanın Türkiyəyə ilk işgüzar səfəri fonunda daha bir hadisə medianın diqqətindən yayınmadı - ”daşlar ölkəsi” üçün son dərəcə əhəmiyyətli və çox maraqlı subtekstlə. Məhz, Rusiya baş nazirinin müavini Aleksey Overçukun Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda İrəvanın hazırkı siyasəti ilə bağlı açıqlamaları xüsusi diqqət çəkir.

Bəyanatların tonuna əsasən, Moskva Ermənistanla gələcək münasibətlərinə müsbət baxışdan uzaqdır və Paşinyanın siyasi cızıqlarından açıq-aşkar skeptisizm, qıcıq və narahatlıq yaşayır. Belə ki, Overçuk xüsusilə bəyan edib ki, Ermənistanın Avropaya inteqrasiyası onun Avrasiya İqtisadi İttiqafı (Aİİ) ilə əməkdaşlığına mane olur və bu, bu ölkə üçün çox fəlakətli nəticələnə bilər. Onun sözlərinə görə, İrəvanın Avropa İttifaqına (Aİ) doğru kursu ilə əlaqədar Rusiya biznesi daha ehtiyatlı olub: 2024-cü ildə ticarət dövriyyəsi 2 milyard dollar azalıb, 2025-ci ildə isə itkilər 6 milyard dollara çata bilər. ÜDM-i 26 milyard dollar olan ölkə üçün bu, 23% itki deməkdir.

”Və bu, yalnız Rusiya biznesinin erməni müzakirəsinə reaksiyasıdır”, - deyə baş nazirin müavini qeyd edib və o, məsələn, Rusiya Federasiyasının Ermənistanın Avropaya inteqrasiyasının dərinləşməsinin Aİ-nin əvvəllər etdiyi kimi Ermənistanın da Rusiya təyyarələri üçün öz hava məkanını bağlaya biləcəyindən ehtiyat etdiyini bildirib.

Rusiyanın yüksək rütbəli məmurunun bu çox birmənalı açıqlamaları nə deməkdir? Bu, sadəcə olaraq qəzəbli reaksiyadır, yoxsa artıq Moskvanın İrəvanı yoluna qaytara biləcək soyuq duş kimi silsilə tədbirlərə hazırlaşdığına işarədir? Bu barədə rusiyalı və belaruslu politoloqlar Caliber.Az-la fikirlərini bölüşüblər. Ekspert rəylərini oxucularımıza təqdim edirik.

Rusiyalı politoloq Dmitri Qradovun fikrincə, Moskva baş nazirin müavini Overçukun vasitəsilə İrəvana çox hədələyici xəbərdarlıq edir və onun indi də edilməsi təsadüfi deyil. ”Overçukun bu kəskin tezislərini Moskvanın açıq-aşkar təşvişlə qarşıladığı Yerevanın hazırkı hərəkətləri ilə əlaqələndirməmək çətindir. Birincisi, Paşinyanın anti-dövlət bəyanatlarında və Ermənistan hakimiyyətini sarsıtmaqda ittiham etdiyi Samvel Karapetyanın həbsi. Bu arada Karapetyan Rusiyada ən iri erməni kapitalına sahib rus iş adamıdır. Deməli, Ermənistanın baş naziri öz hərəkətləri ilə, əslində, Rusiya biznesi və ya Moskvanın cəlb etdiyi erməni siyasətçilərin onu narahat etməsinə səbəb olarsa və ya bunu ölkədəki gücünə təhlükə kimi görsə, onlarla mübarizədə qərarlı olduğunu açıq şəkildə ortaya qoydu. Bunun üçün Kremlin icazəsi var.

Overçuk Ermənistana açıq şəkildə bildirdi ki, qırmızı xətlər praktiki olaraq keçilib. Rusiya biznesi başa düşür ki, İrəvan Aİ-yə daxil olmaq qərarına gəlsə, onun bu ölkədə gələcəyi yoxdur”,- politoloq bildirib.

Onun sözlərinə görə, aydındır ki, baş nazirin müavini Ermənistanın baş naziri qeyri-dost siyasət apararsa, Ermənistanda rusiyayönlü iş adamlarını və siyasətçiləri həbs edərsə, bütün Rusiya biznesi üçün cavab vermək qərarına gəlib.

Politoloqun sözlərinə görə, Moskva Paşinyanın kursunu anti-Rusiya və təhlükəli hesab etdiyini açıq şəkildə bildirir.

”Aİ səmalarını Rusiya təyyarələrinin üzünə bağlayıb. Ermənistan da səmalarını bağlayacaqmı? Əgər siz Aİ-yə daxil olsanız, bəli, çünki Brüssel sizə onları bağlayacağınızı deyəcək, siz də bağlayacaqsınız - sizin seçiminiz qalmayacaq. Bəs nə? Budur, Overçukun konkret sualı Moskvanın Ermənistanın hazırkı kursunu özünə zərərli hesab etdiyini göstərir. Və o, bununla bağlı niyyətində deyil”.

Belaruslu politoloq Borislav Osinçuk hesab edir ki, Moskva artıq İrəvanı razı salmağa çalışmır, Ermənistanın qərbyönlü yolunu davam etdirəcəyi təqdirdə hansı tədbirlərin görüləcəyini konkret olaraq adlandırır. Rusiya baş nazirinin müavininin açıq şəkildə ifadə etdiyi kimi, Aİ və Aİİ-də eyni vaxtda olmaq mümkün olmayacaq.

”Bunlar ermənilər üçün aydın göstəricilərdir. Overçuk Ermənistan vətəndaşlarını Aİ-nin seçiminin onların həyatına necə təsir edəcəyini təsəvvür etməyə dəvət edib və aydındır ki, Moskva ən radikal tədbirlərə hazırdır. Ümumiyyətlə, bəyanatların konteksti onu deməyə əsas verir ki, Kremldə Ermənistanın Rusiya ilə etimadlı əməkdaşlığa hazır olmadığı, eyni zamanda, Bruera ilə eyni vaxtda öz maraqlarına xəyanət etmək niyyəti var. Kreml üçün bu qəbuledilməzdir, ona görə də biz görürük ki, baş nazirin müavini dərhal sonra ola biləcək sanksiyaların adını çəkir və bu addımların hər biri Ermənistan iqtisadiyyatı üçün ciddi nəticələrlə doludur.

Məsələn, Overçuk əmin edir ki, Rusiya ilə Ermənistan arasında hava nəqliyyatı tamamilə bağlanacaq və bu, qohumlara səfərləri çətinləşdirəcək və Rusiyadan turist axınını azaldacaq. Bu, həm də Yuxarı Lars gömrük məntəqəsində erməni mallarının Rusiya bazarlarına çıxışını əngəlləmək təhlükəsidir; onlar total nəzarətə tabe olacaqlar ki, bu da Ermənistanın iqtisadi vəziyyətinə dərhal təsir edəcək.

Məhz bu iki nöqtə ermənilərə dərhal və ağrılı şəkildə dəyəcək.

Overçukun Rusiya ilə Ermənistan arasında ticarət dövriyyəsinin 2025-ci ilin sonuna kimi azala biləcəyi ilə bağlı proqnozu göstərir ki, Rusiya Ermənistanda əsas marağı - ”boz ixracat”a olan tələbatını etibarlı şəkildə ödəyən tranzit dövlət kimi itirib. Moskva İrəvanla ticarətini qurban verməyə hazırdır və onu azaltmaqda qərarlıdır. Bu isə Ermənistan üçün ən məşum əlamətdir”, - B.Osinçuk bildirib.

Tərcümə - Elçin Bayramlı

REPOR

Ağlamaq:
qadınlara olar, kişilərə yox?

"Kişilər ağlamaz" fikri elə-belə ortaya çıxmayıb. Bu, illərlə davam edən tarixi, mədəni və sosial təsirlərin nəticəsində formalaşmış bir cəmiyyət düşüncəsidir. Əvvəlcə bu fikirin haradan qaynaqlandığını başa düşmək lazımdır. SİA mövzu ilə bağlı araşdırma aparıb.

Kişilər ağlamaz?

Keçmişdə, xüsusilə qədim dövrlərdə, kişilərin əsas vəzifəsi ailəni qorumaq, ov etmək, döyüşmək, çətinliklərə sinə gərmək idi. O vaxtlar cəmiyyət kişidən fiziki və psixoloji cəhətdən sərt və dözümlü olmağı tələb edirdi. Ağlamaq isə zəiflik kimi görülürdü. Çünki düşmən qarşısında zəif görünmək təhlükə yaradırdı. Məhz buna görə də kişi emosiyalarını gizlətməyə, göz yaşını boğmağa öyrədilirdi. Zaman keçdikcə bu fikir dinlərdə, ədəbiyyatda və xalq inanclarında da öz yerini aldı. Kişilərdən səbirli, möhkəm olmaq gözlənildi, amma ağlamaq, dərdini dilə gətirmək çox vaxt "kişiyə yaraşmayan" davranış kimi göstərildi.

Xüsusilə də, müharibə dövrlərində, məsələn, I və II Dünya müharibələri zamanı kişilərə "dözümlü ol, qorxunu göstərmə, ailəni düşün" kimi tələqinlər verildi. O dövrdən etibarən kişi güclü olmalı, ağlamamalı, hisslərini gizlətməli idi. Bu düşüncə sonradan kinolarda, nağıllarda, məktəb və ailə tərbiyəsində də geniş şəkildə təbliğ olunmağa başladı. Uşaqlara tez-tez "Oğlansan, niyə ağlayırsan?", "Kişi zəiflik göstərməz!" kimi sözlər deyildi. Bu da tədricən şüuraltı bir inanca çevrildi. Halbuki, ağlamaq insanın təbii ehtiyacıdır. Ağlamaq zəiflik deyil, daxili təzyiqin boşalması və psixoloji yüngülləşmə vasitəsidir. Kişilər də insan olduğu üçün duyğularını yaşamağa, ağlamağa, kövrəlməyə haqqı var. Bu gün artıq bu stereotiplərə qarşı mübarizə aparılır. Müasir psixologiya göstərir ki, duyğularını boğan insanlar, xüsusilə, kişilər daha çox stress yaşayır, ürək-damar və sinir sistemi xəstəliklərinə tutulurlar. Bütün bunlar göstərir ki, "kişilər ağlamaz" fikri həm səhvdir, həm də təhlükəli nəticələrə yol açа bilər. Bu fikir cəmiyyətə tədricən, uzun bir tarixi və mədəni proses nəticəsində aşılanıb. Amma bu gün artıq anlayırıq ki, güclü olmaq ağlamamaq deyil, hisslərini tanımaq və onları sağlam şəkildə ifadə edə bilməkdir. Kişilər də hiss edir, kövrəlir, üzülür və ağlamağa ehtiyac duyur. Onlara bu haqqı tanımaq cəmiyyət olaraq bizim vəzifəmizdir.

"Kişilər ağlamaz" stereotipi demək olar ki, bütün dünyada bir şəkildə mövcuddur. Amma bəzi mədəniyyətlərdə bu fikir daha sərt, daha görünən və təsiredici şəkildə cəmiyyətə aşılanır. Bu, əsasən patriarxal, yəni kişi üstünlüklü quruluşa sahib olan cəmiyyətlərdə daha çox özünü göstərir.

Şərqi və Orta Asiya mədəniyyətləri

Bu bölgələrdə, xüsusilə də, Çin, Yaponiya, Koreya, Vyetnam kimi ölkələrdə kişi fiquru ənənəvi olaraq sakit, təmkinli, emosiyasız və məsuliyyətli biri kimi təqdim olunur. Məsələn, Yaponiyada kişi ailənin "sütunu" hesab olunur. Burada duyğu göstərmək, xüsusilə ağlamaq, zəiflik əlaməti kimi görülür. Çin fəlsəfəsində və Konfutsi təlimində də kişi rasional, səbirli və daxili gücə sahib biri kimi idealizə edilir.

Yaxın Şərq və ərəb mədəniyyətləri

Bu bölgələrdə kişi obrazı qoruyucu, lider və güc simvolu kimi formalaşdırılır. Ağlamaq və duyğu göstərmək tez-tez qadınlara xas davranış kimi qəbul edilir və kişilərin belə davranışları birmənalı qarşılanmır. Cəmiyyətin gözündə "kişi" daim özünü idarə edən, öz emosiyalarına qalib gələn biri olmalıdır.

Türk və Orta Asiya mədəniyyəti

Türk dünyasında kişi obrazı tarixən döyüşçü, qəhrəman, qorxmaz və mətin fiqur kimi təqdim olunub. Köçəri həyat tərzi, müharibələr və sərt həyat şəraiti kişidən emosiyalarını boğmağı tələb edirdi. Bu gün də bir çox türk cəmiyyətlərində, o cümlədən Azərbaycanda, oğlan uşaqlarına "kişi kimi ol", "ağlama", "güclü dayan" deyilir.

Qərb - xüsusilə ABŞ mədəniyyəti

Maraqlıdır ki, Qərbdə, xüsusilə Amerika mədəniyyətində, kişi obrazı da uzun illər "emosiyasız qəhrəman" kimi təqdim olunub. Kovboy filmləri, hərbi dramlar və superqəhrəman filmləri bu stereotipi daha da gücləndirib. Burada kişi demək, ağlamayan, döyüşən, ailəsini qoruyan və heç zaman hisslərini göstərməyən obraz demək idi. Amma son illər bu stereotip zəifləməyə başlayıb və artıq Qərbdə kişi duyğularına yer vermək daha qəbulolunan hal alır.

Afrika və Latın Amerikası mədəniyyətləri

Bəzi Afrika qəbilələrində və Latın Amerikası ölkələrində kişi gücü əsasən fiziki güc və qətiyyət üzərindən qiymətləndirilir. Ağlayan kişi "zəif", "qadınabənzər" kimi etiketlənə bilər. Xüsusilə, maço (machismo) anlayışı Latın Amerikasında kişinin hisslərini boğmasını və daim dominant olmasını təbliğ edir. "Kişilər ağlamaz" stereotipi dünyada demək olar ki, hər mədəniyyətdə az və ya çox dərəcədə mövcuddur. Ancaq ənənəvi, kişi mərkəzli və sərt sosial qaydalara malik cəmiyyətlərdə bu fikir daha güclü şəkildə yaşamaqdadır.

Bununla belə, müasir dövrdə qloballaşma, təhsil və psixoloji maarifləndirmə sayəsində bu stereotip bir çox mədəniyyətlərdə tədricən zəifləməyə başlayır. Artıq insanlar başa düşürlər ki, ağlamaq insan olmaq əlamətidir, cinsə görə yox.

Sosioloq Üzeyir Şəfiyev: "Ənənəvi və kişi mərkəzli cəmiyyətlərdə kişilərin üzərinə bir sıra sosial və hüquqi yükləmələr olunur. Bu cür cəmiyyətlərdə kişiyə təkcə ailənin başçısı olmaq deyil, eyni zamanda ailəni maddi cəhətdən təmin etmək, təhlükəsizliyini qorumaq, hər bir problemi həll etmək, daim soyuqqanlı və güclü qalmaq kimi öhdəliklər yüklənir. Belə baxıldıqda, cəmiyyət kişi obrazını sanki bir dağ kimi sərt və sarsılmaz görmək istəyir. Bu yükləmələr bəzən o qədər kök atır ki, artıq kişi duyğularını ifadə etməyi zəiflik kimi qəbul edir və öz problemlərini içində saxlamağa üstünlük verir. Nəticədə, bu vəziyyət psixoloji gərginliklərə, emosional tükənməyə və hətta depressiyaya qədər gedib çıxır. Amma cəmiyyət yenə də kişidən "güclü ol", "sarsılma", "ailəni qorumaq sənin borcundur" deyə tələb edir. Hüquqi müstəvidə də bəzən bu sosial gözləntilərin əksi görünür. Məsələn, ailə hüququnda uşaq və ya ailənin əsas maddi təminatçısı kimi daha çox kişidən gözlənti var. Amma bu yükləmələrin qarşılığında onun hüquqları, sosial dəstəyi və psixoloji ehtiyacları bəzən arxa plana keçir. Bir tərəfdən, kişiyə daha çox hüquq tanınırmış kimi görünür: məsələn, qərarvermə prosesində üstün mövqe, amma digər tərəfdən həmin hüquqlar, əslində, onun üzərinə daha çox məsuliyyət və gözlənti yükləyir. Bu balanssızlıq, uzun müddətdə, həm kişi fərdin rifahını zədələyir, həm də ailə və cəmiyyət münasibətlərinə təsirsiz ötüşmür. Bu baxımdan vacib olan odur ki, cəmiyyət kişiyə yalnız vəzifələr yükləməsin, həm də onu anlayan, dəstəkləyən, duyğularına və zəifliklərinə yer verən bir yanaşma sərgiləsin. Hüquqi sistem də yalnız maddi məsuliyyətə deyil, emosional və sosial ehtiyaclara da diqqət yetirsin. Cəmiyyətin kişilərə yönəltdiyi ənənəvi gözləntilərdən biri də "kişi zəif olmaz", "kişi ağlamaz", "kişi möhkəm və səbirli olmalıdır" kimi öhdəliklərdir. Bu cür yanaşmalar uzun illərdir ki, kişilərin davranış modelini formalaşdırır. Kişidən gözlənilir ki, o, hər çətinlik qarşısında soyuqqanlılığını qorusun, duyğularını büruzə verməsin, heç kimə "zəif tərəfini" göstərməsin. Əslində isə bu, cəmiyyətin kişi üzərində yaratdığı görünməz, lakin çox ağır bir yükdür. Kişinin hər dəfə öz hisslərini boğması, ağlamağa ehtiyac duyduğu halda göz yaşlarını udması və daim güclü görünmək məcburiyyətində qalması onun daxili dünyasına təsir edir. Kişilər qadınlardan fərqli olaraq, emosional boşalmanı daha çox introvert şəkildə, yəni daxilə yönəlik yaşayırlar. Problemlərini səsli şəkildə dilə gətirmək, kimləsə bölüşmək əvəzinə, onları içində saxlayır, təkbaşına həll etməyə çalışırlar. Bu isə uzun müddətdə psixoloji yüklənməyə, daxili gərginliyə və emosional tükənməyə səbəb olur. Belə hallarda kişi özünü zahirdə möhkəm, sakit və nəzarətli göstərsə də, daxilində ciddi zədə almış olur. Məhz bu daxili konfliktlər, yəni cəmiyyətin gözləntiləri ilə şəxsi ehtiyaclar arasında yaşanan ziddiyyət onun ruh sağlamlığını pozur. Nəticədə kişi bəzən depressiyaya düşür, bəzən aqressivləşir, bəzən də sosial həyatdan uzaqlaşır. Bu səbəbdən cəmiyyətin "kişi ağlamaz", "kişi zəif görünməməlidir" kimi yanaşmaları dəyişməlidir. Kişilərə də duyğularını ifadə etmək, kömək istəmək və emosional boşalma hüququ verilməlidir.

Çünki duyğuların ifadəsi zəiflik deyil, insani ehtiyacdır - istər qadın, istər kişi üçün. Cəmiyyətdə kişilər üzərinə qoyulan "kişilik" öhdəlikləri - məsələn, "kişi ağlamaz", "kişi zəif görünməməlidir", "kişi hər şeyə dözməlidir" kimi yanaşmalar onların sağlamlığına ciddi təsir göstərir. Bu təsir, sadəcə psixoloji yox, eyni zamanda fizioloji səviyyədə də müşahidə olunur. Statistik göstəricilər göstərir ki, 30 yaşdan sonra kişilər arasında ölüm halları qadınlarla müqayisədə daha çoxdur. Yaş artdıqca bu fərq daha da dərinləşir. Bu səbəbdəndir ki, ahıl yaş qrupunda, yəni 65 yaşdan yuxarı yaşayanların əksəriyyəti qadınlardır. Bu, təsadüfi bir göstərici deyil. Çünki kişilər uzun illər boyunca emosional gərginliyi daxillərində saxlayaraq yaşayır, problemlərini paylaşmadan, "zəif görünmədən" susaraq keçməyə çalışırlar. Bu daxili gərginlik isə, zamanla, onların ürək-damar, təzyiq, sinir sistemi və hətta bəzi psixosomatik xəstəliklərin yaranmasına səbəb olur. Yəni kişi fiziki baxımdan sağlam görünə bilər, amma psixoloji yüklənmənin təsiri ilə bədəni içdən sıradan çıxmağa başlayır. Təəssüf ki, bir çox kişi zamanında tibbi yardıma da müraciət etmir. Çünki "kişiyə yaraşmaz", "kişi dözməlidir", "kişi həkimə görə gedib nə edəcək" kimi cəmiyyətin yersiz yanaşmaları onların həm özünü dinləməsinə, həm də özünü qorumasına mane olur. Nəticədə, problemlər ağırlaşır, xəstəliklər dərinləşir və ölüm riskləri artır. Cəmiyyətdə qadın-kişi nisbətindəki balansın pozulmasının səbəblərindən biri də budur. Yəni yaşlı qadınların sayının kişilərdən çox olması sadəcə bioloji deyil, sosial-psixoloji amillərlə də sıx bağlıdır. Bütün bunlar bir daha göstərir ki, kişi olmaq, hisslərini boğmaq demək deyil. Güclü olmaq susmaq yox, problemi vaxtında dərk etmək və ona çarə axtarmaqdır. Cəmiyyət də bu anlayışı dəyişməli, kişilərə də duyğularını ifadə etməyə, zəif anlarını yaşamağa və kömək istəməyə haqq verməlidir. Kişilərin ailənin qoruyucusu, təminatçısı və istiqamətverici fiquru kimi yetişdirilməsi onların sosial məsuliyyət hissini artırır. Bu yanaşma kişilərin öz həyatlarına və ətrafdakılara qarşı ciddi, planlı və cavabdeh davranmasını təşviq edir. Bir çox kişi, bu gözləntiləri və rolları yalnız yük kimi deyil, həm də şərəfli vəzifə kimi qəbul edir. Onlar üçün ailəyə sahib çıxmaq, çətinlik zamanı səbirli olmaq, yaxınlarını qorumaq bir kimlik məsələsidir. Bu öhdəliklər sayəsində kişilər cəmiyyətin dayağı, böhran anlarında sabitlik mənbəyi rolunu oynayırlar. Onlar cəmiyyətin nizamını, ailənin birliyini, ictimai sabitliyi qorumaqda mühüm yer tuturlar. Məsələn, çətin dövrlərdə müharibə, iqtisadi böhran və ya ailədaxili gərginliklər zamanı kişilərin bu "mətin durmaq" rolu ətrafdakılara da güvən verir. Digər tərəfdən, bu məsuliyyətləri daşımaq kişilər üçün özünü tanıma, inkişaf etdirmə, liderlik və idarəetmə kimi müsbət keyfiyyətlərin formalaşmasına səbəb olur. Onlar özlərinə və ailələrinə qarşı daha diqqətli olurlar, çünki hiss edirlər ki, onların davranışı təkcə özlərini deyil, başqalarını da təsirləndirir. Əlbəttə ki, bu məsuliyyətin psixoloji yükə çevrilməməsi üçün balanslı yanaşma vacibdir. Yəni kişilərin güclü və sabit olması ilə yanaşı, insani zəifliklərinə hörmətlə yanaşmaq, onlara da emosional dəstək vermək mütləqdir. Güclü olmaq hissləri boğmaq deyil, onları idarə edə bilmək və lazım gəldikdə paylaşa bilməkdir".

Söylü Ağazadə

ARXİVİMİZDƏN

"Texnologiya nə yaxşı, nə də pisdir"

PSİXOLOQ İZAH ETDİ

"Müasir dövrümüzdə texnologiyanın həyatımıza sıx daxil olması qaçınılmazdır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq, Brainspotting terapisti Pərvanə Musayeva deyib.

O bildirib ki, texnologiyanın həm böyüklər, həm də uşaqların həyatına böyük təsiri var: "Texnologiya həm öyrənmə, həm də əyləncə vasitəsi kimi böyük imkanlar yaradır. Lakin onun düzgün və balanslı istifadəsi olduqca vacibdir. Balanslı yanaşma dedikdə, texnologiyanın faydalarından yararlanmaqla yanaşı, onun mümkün mənfi təsirlərini azaltmaq üçün sərhədlər və qaydalar qoymaq nəzərdə tutulur.



Balanslı yanaşma nədir?

Balanslı yanaşma texnologiyanın:

Məqsədli və ehtiyac yönümlü istifadə olunması (məsələn, öyrənmə, yaradıcılıq, əlaqə qurmaq)

-Müəyyən zaman limiti ilə istifadəsi (məsələn, gün ərzində ekran qarşısında keçirdiyi saatların müəyyənləşdirilməsi)

Valideynlər texnologiya istifadəsində düzgün yanaşmanı necə təmin edə bilərlər?

1.Nümunə olmaq

Uşaqlar, valideynlərin texnologiya ilə münasibətini müşahidə edərək öyrənir. Valideyn özü balanslı istifadə edirsə, uşaq da bu davranışı mənimsəyir.

2.Qaydalar müəyyənləşdirmək

Evdə texnologiya istifadə qaydalarını əvvəlcədən danışaraq razılaşdırmaq:

Ekran qarşısında maksimum vaxt (məsələn, 5-12 yaş üçün gündə 1-2 saat)

3.Yemək zamanı, yataq otağında telefon və planşetdən istifadə qadağası

4.Ailə ilə birgə texnologiyasız vaxtlar (kitab oxumaq, oyunlar, söhbətlər)

5.Alternativ fəaliyyətləri təşviq etmək.

İdman, rəsm, musiqi, açıq havada oyunlar kimi fəaliyyətlər uşağın texnologiyaya bağlılığını azaldır.

6.Birlikdə texnologiyadan istifadə

Filmləri, oyunları, proqramları birlikdə seçmək və izləmək, müzakirə etmək uşağın tənqidi düşüncə bacarığını inkişaf etdirir.

7.Rəqəmsal savadlılığı artırmaq

Uşağa internet təhlükəsizliyi, kibertəcavüz, şəxsi məlumatların qorunması mövzusunda maarifləndirmə aparmaq vacibdir".

"Texnologiya və sosial bacarıqların birbaşa əlaqəsi var. Yəni texnologiyanın həddindən artıq və tənasübsüz istifadəsi sosial bacarıqların zəifləməsinə səbəb ola bilər.

1. Uşaqlar real ünsiyyət imkanlarından məhrum olduqda empati, aktiv dinləmə, qarşılıqlı hörmət kimi bacarıqları zəif inkişaf edə bilər.

2. Yalnız virtual ünsiyyətlə kifayətlənən uşaq emosional ifadələri və bədən dilini anlamaqda çətinlik çəkə bilər.

3. Sosial narahatlıq və tənha hiss etmək riski arta bilər.

Texnologiya nə yaxşı, nə də pisdir, onun necə və hansı həcmdə istifadə olunması vacibdir. Valideynlərin və müəllimlərin əsas vəzifəsi uşaqlara texnologiyanın imkanlarından səmərəli yararlanmağı, eyni zamanda real həyatda sosial bacarıqlarını qorumağı və inkişaf etdirməyi öyrətməkdir. Balanslı yanaşma ilə texnologiya uşağın inkişafının düşməni deyil, dostuna çevrilə bilər" - deyə o, əlavə edib.

Söylü Ağazadə

ChatGPT jurnalistləri

MƏTANƏT

Milli mətbuatımızın yaranmasının 150 illiyini böyük qürurla qarşıladığımız, gələn ay böyük bayramla qeyd edəcəyimiz bir dövrdə bundan danışmaq nə qədər kədərləndirici və təəssüfedici olsa da, lakin elə sələfimizin tövsiyəsinə dayanaraq düzü düz, əyrini əyri demək borcumuzdur.

Müasir dövrümüzün yeniliklərindən biri də ChatGPT-dir. Süni intellekt kimi texnologiyanın son nailiyyətlərindən biri olaraq həyatımıza daxil olub. Daxil olar-olmaz, kimin bilik və dünyagörüş səviyyəsi hansı dərəcədədirsə, o çərçivədə də ChatGPT-dən istifadə etməyə başlayıb. Məsələn, bəzi yeniyetmə-gənclər artıq real dostluğa son qoyub, başlayıblar ChatGPT ilə dostluq etməyə. Elə bir dostluq ki, ChatGPT artıq onları özlərindən alıb aparıb texnoloji dünyaya, real həyatdan ayaqlarını kəsib. Digər istifadəçilər ChatGPT-dən həkim kimi istifadə edənlərdir. Onlar artıq əziyyət çəkib xəstəxanalara getmir. Öz xəstəlikləri haqqında ChatGPT-yə danışır, o da məsləhət və tövsiyə verir, başlayırlar müalicəyə. Və yaxud da dara düşən istənilən bir kəs həmin dəqiqə ChatGPT-yə yazır və ya səsini göndərir, o da onun istəklərini qısa zaman ərzində yerinə yetirir. Hansı səviyyədə, hansı dərəcədə yetirir, onu özü, bir də istifadəçi bilir. Və sair və ilaxır...

Hə, özümüzü heç də kənara çəkməyək. Çünki artıq ChatGPT jurnalistləri də yetişməkdədir. Belə ki, bəzi media nümayəndələri öhdəliyi olan yazını özləri deyil, ChatGPT yazır. Məsələn, onlara lazım olan faktları və yaxud da hansı mövzuda yazı istədiklərini ChatGPT-yə yazır, o isə qısa zaman ərzində yazını hazırlayır. Və bu jurnalistlər həmin yazını öz imzaları ilə istənilən qəzet, agentlik, sayt və portala yerləşdirir və bununla işini bitmiş hesab edir.

Bu jurnalistlər özləri haqqında yüksək fikirdə olduqlarından onlara elə gəlir ki, bu "pryomdan" heç kimin xəbəri yoxdur. Lakin onu fikirləşə bilmirlər ki, peşəkar jurnalistlər belə yazıları elə sərlövhədəncə anlayır.

ChatGPT-yə yazı yazdırmaq, öz imzası ilə dərc etdirmək plagiatlıq deyil, başqa nədirsə, bilən varsa, izah etsin, biz də bilək. Məncə bu plagiatlığın digər plagiatlıqdan fərqi ondadır ki, biri var, kiminsə yazısından fikir oğurlayıb özününküləşdirmək, biri də var kiminsə yazısını bütövlükdə mənimsəmək. Bir də hələ o kim deyilsə, nədirsə, bax, elə problem də burda meydana çıxır ki, insan zəkası dəmir parçasına təslim olur.

Təəssüf ki, bu gün yeni bir media sahəsi-ChatGPT jurnalistikası və jurnalistlər nəsli yetişir. Qarşısı alınmasa, "Media haqqında", "Müəlliflik hüquqları haqqında" qanunlara plagiatlıq əməli üçün maddə salınmasa, yaxın gələcək üçün nələr baş verəcək, bunu düşünmək bir o qədər də çətin deyil.

ChatGPT əslində o mənada sərfəli ola bilər ki, ondan səmərəli istifadə olunsun. Yəni, hər hansı faktı öyrənməkdə, təcili məlumat almaqda ChatGPT həqiqətən yardım edə bilir. Məsələn, illər öncə barmaqlarımızda hesabladığımız rəqəmləri kalkulyator "kəşf" olunandan sonra qısa zamanda hesablaya bildiksə və kalkulyator sadəcə bir əşyadırsa, ChatGPT də onun kimi proqramlaşdırılmış bir əşyadır. Onun ağlı başında olan insanlar üçün dost olması mümkün olmasa da, lakin qısa zaman ərzində məlumat almaqda sərfəlidir. Lakin ona yazı yazdırmaq, bu yazını qəzet, agentlik, sayt, portal redaktorlarının başını aldatmaqla şəxsi imza ilə yaymaq düşünürəm ki, tək onlar üçün deyil, çoxsaylı oxucular üçün də təhqirdir.

Və... bu əməl milli mətbuatın 150 illik yubileyinə heç də yaxşı töhfə deyil. Bəlkə bir qədər düşünməyə ehtiyacımız var? Bəli, var. Düşünək ki, dərk edə bilək, yazını jurnalist yazmalıdır, yoxsa ChatGPT? Əgər o, yazmalıdırsa, onda əmək haqqının halal-haram məsələsi də gündəmə gəlir.

Bəlkə mən səhv düşünürəm, yazıları elə ChatGPT yazmalıdır... Belə isə münasibət bildirin. Ya mənə "geridə qalmış", ya da "sən doğru deyirsən",- deyin.

Sertifikasiya: öz fənnindən kəsilənlər, yüksək nəticə göstərənlər...



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb

İki gün əvvəl müəllimlərin növbəti sertifikasiya imtahanı keçirildi. Müəllimlərin sertifikasiyası, onların peşəkar səviyyələrini yoxlamaq və təhsil sistemindəki yerlərini müəyyən etmək məqsədi daşıyan bir prosesdir. Bu, müəllimlərin bilik və bacarıqlarının, həmçinin pedaqoji fəaliyyətlərinin qiymətləndirilməsini əhatə edir. Sertifikasiya müddəti, müəllimlərin daim öz üzərlərində işləməsinə və peşəkarlıqlarını artırmalarına təkan verir.

Sertifikasiya imtahanlarında yüksək nəticə göstərən müəllimlərin sayı olduqca çox oldu, bununla belə, ikinci dəfə şans verilən müəllimlər də var idi ki, imtahanda qənaətbəxş nəticə göstərə bilmədilər. Təhsil eksperti Kamran Əsədov sözügedən məsələ ilə bağlı sosial şəbəkə hesabında belə bir paylaşım edib: "Bu il keçirilən 2-ci şans sertifikasiya imtahanının nəticələri bir daha göstərdi ki, hələ də təhsil sistemimizin içində "müəllim" adını daşımağa layiq olmayan kifayət qədər insan var. Təsəvvür edin: 60 sualdan ibarət imtahanın 30-na belə düzgün cavab verə bilməyən birisi illərlə məktəbdə dərs deyib. Özü də Azərbaycan dili, riyaziyyat, rus, ingilis dili kimi əsas fənlərdən Bəs bu insanlar indiyə qədər nə öyrədiblər? Kimi yetişdiriblər?

İmtahanda uğursuz nəticə göstərənlərə güzəşt edilməsini təklif edənlərə səslənirəm: Güzəşt uşaqların gələcəyinə qarşı cinayətdir. Empatiya adı ilə savadsızlığı qorumaq, təhsili sıradan çıxarmaq deməkdir. Sertifikasiya - sadəcə imtahan deyil, təhsildə məsuliyyətin ölçüsüdür. Əgər bir müəllim ixtisasını özü yaza bilmirsə, kurikulumdan xəbərsizdirsə, heç bir yeniliyi izah edə bilmirsə, necə "müəllim" adını daşıya bilər?

Əslində problem imtahanın çətinliyində deyil, problem illərlə dərs deyə-deyə öyrənməyə son qoyan, eyni məlumatlarla oturub-duran, tənqidə qapalı, tənbəl, sosial şəbəkədə saatlarla vaxt keçirib, sual düşəndə "çətindi" deyən düşüncədədir. Bəli, məktəblərdə bu gün şagirdlərin özləri belə artıq fərqindədir ki, kim onlara nəsə öyrədir, kim sadəcə gününü yola verir.

Sertifikasiya təhsilin gələcəyinə yönəlmiş ən doğru addımlardan biridir. Yalnız bilik və bacarıqla silahlanmış, dəyişən dünyanın tələblərinə cavab verən müəllim təhsilin inkişafına töhfə verə bilər. Qalanı - sadəcə maaş almaq üçün məktəbdə oturan "şəxs"dir. Unutmayaq: Övladımızın taleyini 30 sualı belə yaza bilməyən birinə etibar etmək - gələcəyimizi qaranlığa buraxmaq deməkdir. Bəli, iki dəfə kəsilən müəllimin bir adı var: SAVADSIZ. O savadsızın yeri məktəb yox, yenidən təlim mərkəzidir. Təhsili ucuz empatiya ilə yox, ciddi məsuliyyət hissi ilə idarə etməliyik!"

Təhsil eksperti Ramin Nurəliyev də öz sertifikasiya imtahanlarının nəticələri ilə bağlı açıqlama verib. Ekspert deyir ki, İmtahanda iştirak edən müəllimlərin əksəriyyətinin müsabiqə şərtlərini ödəyib: "Şagird 5-6 fənn üzrə 1 il hazırlaşır tələbə adını qazanır. Müəllim dərs keçdiyi bir fənn üzrə müəllimliyə əlvida deyir. Sertifikasiya imtahanının nəticəsinə görə humanistlik edilməməlidir. Narazı olanlar apellyasiya müraciəti edə bilər, haqlı isə bunu sübut edərək hüququnu müdafiə edə bilər. Amma çox təəssüflər olsun ki, bəziləri çarəni sosial mediada imtahan təşkilatçılarına və sualları tərtib edənlərə tənqid etməkdə görür.

Ümumiyyətlə, biz sertifikasiya imtahanını gələcək nəslin savadlı olması, təhsilimizin inkişafı istiqamətində atılan bir addım kimi qiymətləndirməliyik. İmtahanda iştirak edən müəllimlərin əksəriyyətinin müsabiqə şərtlərini ödədiyinin şahidi oluruq. Amma çox təəssüflər olsun ki, müsabiqədən uğursuz nəticə ilə ayrılan müəllimlərimiz də var. Müəllim tədris etdiyi ixtisası üzrə müsbət nəticə əldə edə bilmirsə, əmək fəaliyyətinə davam etməməlidir. Buna baxmayaraq Elm və Təhsil Nazirliyi təkrar imtahanda iştirak etmək üçün kəsilən müəllimlərə bir dəfə də şans verir. Lakin buna baxmayaraq müəllim işinə ciddi yanaşmırsa, 1 il müddətində hazırlıqsız imtahana qoşulursa, həmin müəllimə güzəşt olunmamalıdır. Lakin biz şans verilən müəllimin məsuliyyətlə çalışaraq növbəti imtahanda yüksək nəticə ilə uğur əldə etdiyinin də şahidi olduq.

Öz ixtisası üzrə hazırlaşmaq bir müəllimə çətin gəlirsə, o, ümumtəhsil məktəblərində tədris prosesindən konkret olaraq kənarlaşdırılmalıdır. Düşünə bilirsinizmi, 11-ci sinifdə oxuyan bir abituriyent 5-6 fənn üzrə qəbul imtahanı verir. Bu abituriyent verəcəyi imtahana 5 fəndən hazırlaşır. Amma 1 fəndən, illərlə ixtisası üzrə dərs keçən müəllim təəssüflər olsun ki, kəsilir. Başqa fəndən deyil, öz fənnindən kəsilir. Yəni, bu müəllim 11-ci sinifdə oxuyan şagird qədər də işinə məsuliyyətlə yanaşmır. Təkrar şans verilir, yenə də kəsilir. Kəsilir və sonra da günahı sualları tərtib edənlərdə görür.

Əgər bir müəllim 5 fənnə hazırlaşan şagird ilə müqayisədə uğursuz nəticə əldə edirsə, bu biabırçılıqdır. 5 fənn üzrə hazırlaşan 11-ci sinif şagirdinin yükü ilə öz fənni üzrə bir fəndən hazırlaşan müəllimi müqayisə edin. Nə demək istədiyimi anladınız hər halda... İxtisasını bilməyən və buna aciz olan müəllim özü könüllü və səssiz məktəbdən ayrılmalıdır. Çünki müəllimlik peşəsi müqəddəsdir, ucadır. Bu uca peşəni gözdən salmaga heç birimizin haqqı yoxdur".

Espert ingilis dilindən sualların çətin olduğunu bildirən və müsabiqədən kəsilən müəllimlərin sosial platformalardakı sesnsasiyalı açıqlamaları haqqında da danışıb: "Başlayıblar kobudcasına təhqir etməyə. İlk növbədə təhqir edən bir müəllimin bizim ümumtəhsil məktəblərində fəaliyyət göstərməyə haqqı yoxdur. Sənə haqsızlıq edilibsə, hüquqi yollara baş vura bilərsən, amma kimsəni təhqir etmək sənin haqqın deyil. Tənqid ayrı, təhqir ayrı şeydir. Bəla oxuyursan, bəddua edirsən, söyürsən. Bu müəllimə-tərbiyə verənə xas olan xüsusiyyət deyil.

Gələk sertifikasiya imtahanına. Bu müəllimlər keçən il imtahan olunmuşdu, 50 faiz nəticə əldə edə bilmədikləri üçün humanist nazirlik təkrar bir dəfə daha şans verdi. Necə olursa artıq hər iki imtahanda da kəsilənlərə haqsızlıq olur. Bu necə anlayışdır başa düşmürəm. Niyə haqsızlıq ancaq kəsilənlərə olur? Namizədlərdən yarıdan çoxunun kəsilməsi normaldır, məncə. Çünki bunlar onsuz da keçən il zəif nəticə göstərənlər idi. Sualları biologiyadan salmışdılar bəyəm? Müəllimdir bu, müəllim! Şagirdləri imtahan etmirlər, müəllimə sual hazırlayırlar, müəllimə... Narazılıq edən müəllimlərin sualları 11-ci siniflərin qəbul imtahanı suallarından daha çətindir? Onlar 5 fəndən hazırlaşıb imtahan verirlər, sən isə bir fəndən, özü də tədris etdiyin fəndən.

Müəllim öz ixtisasını bilməlidir. Öz ixtisası üzrə 50 faiz nəticə toplaya bilmirsə, könüllü çıxmalıdır. Camaatın balasını bədbəxt etməməlidir. Keçdiyi mövzular üzrə 50 faiz nəticə toplaya bilmirsə, getsin təkrar MİQ imtahanına girsin. Savadsız müəllimlər vakant yerləri tutmamalıdır, onların yerinə gənc, dinamik, universiteti bitirən gənc müəllimlər gəlməlidir. Hər kəs özünü fikirləşir. Ölkəni, xalqı, balalarımızı fikirləşənlər qətiyyən belə düşünməməlidir".

Lalə Mehralı

SON SƏHİFƏ
SƏS
24 iyun
2025-ci il

“Boşanmalar nə övlad üstündə, nə də namus üstündə baş verir”

“Ailə büdcəsinin idarə edilməsi əslində ailə münasibətlərinə ən böyük istiqamətlərdən biridir. Subay insanın özünü dolandırmaq üçün qazancı yetərlidir, amma kimsə ailə məsuliyyətini dərk edib nikaha daxil olubsa, nəzərə almalıdır ki, ailə 2-3-4 nəfərdən ibarət ola bilər. Yaşlandıqca baba, nənə, qohum-əqrəbaya da kömək etmək lazımdır. Ona görə də, ailə həm də çox böyük iqtisadi modeldir”. Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxana portalının yaradıcısı, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

O bildirib ki, yaxşı olar ki, ailənin hər iki tərəfi, övladlar bu məsuliyyəti dərk etsin, ailəni kiçik dövlət kimi qəbul etsinlər: ”Vaxtında dərs oxusunlar, məktəbə getsinlər, məsuliyyətli olsunlar, qazanc əldə etsinlər. Əgər bu qazanc bərabərhüquqludursa, sözsüz ki, ailənin büdcəsini kollektiv şəkildə idarə etmək düzgün olar. Amma bu da həmişə mümkün olmur. Çünki Azərbaycan ailəsində əvvəllər daha çox kişilər, indi isə qadınlar qazanc əldə edirlər. Bu zaman qazanan insan az, ümumiyyətlə, qazanmayan ailə üzvündən daha ağıllı, çevikdir. Ona görə də, ailə büdcəsini evə daha çox gəlir gətirən insan müəyyənləşdirməli, idarə etməlidir. Bəzən ailələrimiz ona görə böhran içinə düşür, boşanma ilə nəticələnir ki, iqtisadi cəhətdən bilgiləri olan, bunu real tətbiq edən, pul qazanan ailə başçısı kənarda qalır, pulu qazancın çətinliyini bilməyən və pulun fəlsəfəsini anlamayan digər nəfər qazancı sağa-sola xərcləməyə başlayır. Ümumiyyətlə, havayı pul xərcləmək asandır, nəinki çətinliklə qazanılmış pul. Bu da ailədə böyük problemlərə gətirib çıxarır.

Bizdə isə tamam fərqli düşüncə tərzi formalaşıb. Əgər ailə başçısı atadırsa, mütləq o, çöldə işləməlidir, gərgin əməklə məşğul olmalıdır, gətirdiyini yoldaşına hesabat verməlidir. Həyat yoldaşı da özü üçün cürbəcür qızıl-zinət əşyaları, hər toya bir paltar almalı, rəfiqələri ilə gəzməyə getməlidir, uşaqların təhsil haqqından tutmuş ailənin məişət və sosial xidmətlər haqqına qədər hər şey qazanc gətirən (keçmişdə kişinin, indi isə daha çox qadınların) insanın üstünə düşür. Bu baxımdan ailələrdə münaqişələr baş verir, boşanmaların böyük əksəriyyəti həm də iqtisadi zəmindən yaranır. Boşanmalar nə övlad üstündə, nə namus üstündə baş verir, daha çox aliment almaq, əldə edilmiş varidatı bölmək üstündə yaşanır. Bu da bizim ailə büdcəmizin və ailə büdcəsinin idarə edilməsi ilə bağlı baxışlarımızı özündə əks etdirir.

Artıq belə kobud münasibətlərə son qoymaq lazımdır. İnsanlar anlamalıdır ki, ailə müqəddəs ocaq olmaqla yanaşı həm də iqtisadi təsisatdır. İnsanlar ümumin mənafeyi naminə qazanclarını bölüşməyə çalışmalıdırlar. Amma ən önəmli qərarın daha çox ailəyə qazanc gətirən insan tərəfindən verilməsi vacibdir”.

Söylü Ağazadə

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb

Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb. SİA xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərarla koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2025-ci il 1 oktyabr saat 06:00-dək uzadılıb. Bundan əvvəl həmin müddət 1 iyul saat 06:00-dək olan dövrü əhatə edib.

İsveçli futbolçu "Barselona"ya keçir

“Barselona” İsveç millisinin gənc üzvü Runi Bardccini transfer etməyə yaxındır. Bu barədə insayder Fabritsio Romano məlumat yayıb. O, kataloniyalıların danışıqlarda irəliləyiş əldə etdiyini və futbolçunun klubu ”Kopenhagen”lə də razılığa gəlindiyi bildirib. Razılaşma son mərhələdədir və yaxın günlərdə yekun detalların dəqiqləşdirilməsi gözlənilir. Runi iyulda ”Barselona”ya keçə bilər.

ELAN

“Tikinti - Quraşdırma” Az NY TŞS” QSC-nin 2024-cü il ərzində gəliri 3 389,84 manat təşkil etmişdir. Cəmiyyətin xərcləri isə 60 781,74 manat olmuşdur. Onun 4 716,24 manatı əmək haqqı, 879,43 manatı DSMF-yə ödəniş, elektrik enerjisinə görə 1 551,18 manat, təbii qaza görə 864,19 manat, yanacaq xərcləri 118,98 manat, rabitə xərcləri 697,15 manat, bilavasitə xərclər 22 446, 28 manat, amortizasiya xərcləri 23 680,59 manat, sığorta xərcləri 307,23 manat, digər xərclər 160,0 manat, əmlak vergisi 2 031,91 manat təşkil etmişdir.

Direktor: Emin Səfərov

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.

Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000